www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 6 aprel 2016-cı il Çərşənbə № 72 (6393) Qiyməti 60 qəpik

**Xəbər**

## Dollarla kredit verilməsi rəsmən dayandırıldı

yazısı səh.12-də

**Gündəm**

### Ordumuz ermənilərin atəşini də kəsdi, nəfəsini də!



Müharibə dayandı, həmsədrlər regiona gəldi; şəhidlərimizin sayı artdı

yazısı səh.5-də

### Parlamentdən Minsk Qrupuna ittihamlar

yazısı səh.9-da

### Qarabağda müharibədən ən çox Rusiyanın yararlanma riski var

yazısı səh.11-də

### LifeNews jurnalistləri Azərbaycandan qovuldu

yazısı səh.10-da

### Miqrantlarla bağlı müqavilə qüvvəyə mindi; qaçqın seli Türkiyədə...

yazısı səh.13-də

### Bakı metrosunda təhlükəsizlik tədbirləri gücləndirildi

yazısı səh.10-da

### Azərbaycan ABŞ-dan istədiyi dəstəyi aldı

yazısı səh.4-də

### Turistlər Ermənistana aldıqları biletləri geri qaytarır

yazısı səh.13-də

*Şəhid atası:*

### "Verdiyimiz bu qanın əvəzində bir qarış torpağımız qayıdacaqsa..."

yazısı səh.2-də

### Turizmə üç böyük təhlükə: terror, savaş və dollar...

yazısı səh.14-də

### Vəkillikdən çıxarılan Müzəffər Baxışa həmkarlarından dəstək

yazısı səh.6-da

## Müharibə dayandı, amma bitmədi...

# 4 GÜNLÜK BLİTS - SAVAŞIN ƏSAS YEKUNU - DÜNYAYA MESAJ, DÜŞMƏNƏ DƏRS...

Şəhid qanı ilə möhkəmlənən qələbə əzmi, sındırılan "məğlubiyyət sindromu", daha nələr...; Azərbaycan Qarabağ məsələsində son sözün ona məxsus olduğunu dünyaya nümayiş etdirdi; **erməni nəşrindən iddia:** "Rusiya rayonları qaytarmaq üçün Ermənistanı dilə tutur..."




yazısı səh.4-də

## Rusiya diplomatiyasının "ağır topu" sabah Bakıda olacaq - əsas gözləntilər

Sergey Lavrovun səfəri olduqca ziddiyyətli və mürəkkəb bir dönəmə təsadüf edir; rusiyalı nazirin Bakıdan İrəvana getməyi planlaşdırmaması Dağlıq Qarabağ məsələsində Azərbaycan üçün unikal təbliğati üstünlük yaradır, çünki...

yazısı səh.8-də



*Sabiq komandan Fəhmin Hacıyev:*

### "Atəşkəs kövrək olacaq"

yazısı səh.3-də



### "Dadaş Novxanınski" əfsanəsi bitdi - "qanuni oğru" kim idi?

yazısı səh.10-da



### Səfər Əbiyev indi nazir olsaydı... - ekspert rəyi

yazısı səh.7-də




## Məhərrəm Əliyev: "Yaxşı olar ki, qan tökülmədən..."

**Prezidentin müdafiə məsələləri üzrə köməkçisi xidmətinin müdafiə məsələləri üzrə şöbəsinin rəisi, general-leytenant Məhərrəm Əliyev son günlər cəbhədə baş verən hadisələr barədə danışıb. Məhərrəm Əliyev "Qafqazinfo"ya açıqlamasında da bildirib ki, böyük fəlakətlər baş vermədən Azərbaycan torpaqları işğaldan azad edilməlidir:**

"Son günlər cəbhə bölgələrində işğalçı Ermənistan ordusu tərəfindən sərhəd boyunca Azərbaycanın yaşayış əraziləri ağır növ silahlardan atəşə tutulub. Bu silahlı hücumların nəticəsində dinc əhalidən və hərbçilərimizdən ölən və yaralananlar var. Şanlı ordumuzun cavab atəşləri nəticəsində erməni işğalçıları xeyli sayda canlı qüvvə və hərbi texnika itiriblər. Azərbaycan xalqı sülhsevər xalqdır. Yaxşı olar ki, qan tökülmədən işğal olunan ərazilərimiz azad edilsin. Hələ ki çox gec deyil, ermənilər böyük fəlakətlərdən qaça bilər. Təəssüflər olsun ki, bu hücumların nəticəsində Azərbaycanın dinc əhalisindən və hərbçilərimizdən itkilər var. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Mən bunu Azəbaycan əsgərinin bir qəhrəmanlıq salnaməsi kimi qiymətləndirirəm".

Qeyd edək ki, son bir neçə gündə aparılan hərbi əməliyyatlarda düşmənin yüzlərlə canlı qüvvəsi, onlarla hərbi texnikası məhv edilib, işğal olunmuş ərazilərin bir hissəsi geri qaytarılıb.

## Bir gündə 2 min adam qan verdi

**"İnsanlar kütləvi şəkildə cəbhə üçün qan verirlər". Bunu Səhiyyə Nazirliyi Mərkəzi Qan Bankının direktoru Pərvanə Hacıyeva lent.az-a açıqlamasında deyib. P. Hacıyevanın sözlərinə görə, Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində gedən döyüşlər barədə xəbərlər yayıldıqca, vətəndaşlar cəbhə üçün əllərindən gələn yardımı etməyə çalışırlar:**

"İnsanlar cəbhədə yaralanan əsgərlərimizə yardım etmək istəklərini qan verərək nümayiş etdirirlər. Hazırda vətəndaşların qan vermək üçün Səhiyyə Nazirliyinin Mərkəzi Qan Bankı və onun bölmələrinə kütləvi şəkildə axını müşahidə olunur. Artıq bir neçə gündür ki, qan vermək istəyən insanların ardı-arası kəsilmir. Təkcə bu gün ərzində respublika üzrə 2000 nəfər insan qanvermə aksiyasında iştirak edib. Son günlər toplanan qan komponentlərə ayrılaraq cəbhə bölgəsində yerləşən xəstəxana və hospitallara göndərilib. Hazırda Mərkəzi Qan Bankında kifayət qədər qan ehtiyatı var".

P.Hacıyeva Səhiyyə Nazirliyi Mərkəzi Qan Bankı adından donorluq edən hər bir vətəndaşa minnətdarlığını bildirərək deyib ki, onların verdikləri hər damla qan cəbhədə yaralanan hərbçilərimizin həyatda qalması üçün mühüm amil olacaq.

## Xalq şairinin ikinci ayağı da kəsildi

**Xalq şairi Söhrab Tahir ikinci dəfə əməliyyat olunub. "Qafqazinfo" xəbər verir ki, Yazıçılar Birliyinin mətbuat katibi Xəyal Rzanın APA-ya verdiyi məlumata görə, xalq şairinin ikinci ayağı da amputasiya edilib.**

Onun sözlərinə görə, Söhrab Tahirin ayaqlarında qanqrena getdiyi üçün əməliyyat qaçılmaz olub:

"Həkimlər şairin sol ayağını da amputasiya ediblər. Söhrab Tahiri artıq palataya köçürüblər. Hazırda vəziyyəti qənaətbəxşdir". Qeyd edək ki, martın 30-da Söhrab Tahirin sağ ayağı amputasiya edilib.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil, **Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur

# Sərdar Cəlaloğlunun şəhid olan qardaşı oğlu Naxçıvanda dəfn edildi

## "Verdiyimiz bu qanın əvəzində bir qarış torpağımız qayıdacaqsa..."

**Xəbər verdiyimiz kimi, Demokrat Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlunun qardaşı oğlu Rasim Məmmədov aprelin 3-də cəbhədə atəşkəsin pozulması nəticəsində vəfat edib. ADP sədrindən aldığımız məlumata görə, bu gün (dünən - red.) günorta saatlarında şəhid R. Məmmədov Naxçıvanda torpağa tapşırılıb.**




Ailə üzvünü şəhid verməsi ilə bağlı "Yeni Müsavat" qəzetinə danışan Sərdar Cəlaloğlu qardaşı oğlu haqqında danışıb: "39 yaşında idi. Hərbi rütbəsi də mayor idi. Tabeliyində 500 nəfərə yaxın əsgəri var idi. Hərbi akademiyanı bitirmişdi. Atası Əbdül Məmmədov da I qrup Qarabağ müharibəsi əlilidir, vaxtilə Qarabağda vuruşub yaralanmışdı. İki uşağı, bir qızı, bir oğlu var".

**ADP sədri vətən uğrunda verdikləri şəhidlərlə fəxr etdiklərini dedi:** "Biz verdiyimiz şəhidlərlə qürur duyuruq, fəxr edirik. Bu dəqiqə bizim ailəmizdən 3 zabit, bir əsgər ön cəbhədə vuruşur. Verdiyimiz bu qanın əvəzində bir qarış torpağımız qayıdacaqsa, bu bizim üçün kifayətdir".

**Şəhid atası, I qrup Qarabağ müharibəsi əlili Əbdül Məmmədov isə "Yeni Müsavat"a danışarkən bildirdi ki, o oğlunu ya şəhid, ya da qazi olmaq üçün böyüdüb:** "Oğlulu onun üçün böyüdürsən ki, ya şəhid olsun, ya qazi. Qız uşağı deyil ki, saxlayıb, böyüdüb, ərə verəsən. Mən özüm də 1992-ci ildə müharibədə yaralanmışam və 23 ildir ki, yataqdayam. Oğlum da mənim yolumu davam etdirmək istədi və hərbiyə getdi. Mayor idi. Vətən üçün əlindən gələni etdi və sonda şəhid oldu. Dəfndə də hərbçilər iştirak etdi. Bütün protokollara uyğun olaraq oğlum şəhid kimi dəfn edildi".

**Oğlunu şəhid verdiyi bu savaşdan Əbdül Məmmədovun gözləntisi qələbədir:** "Döyüşlər bu cür davam etsə, yəqin ki, qələbə qazanacağıq. Ən azından heç olmasa 5 rayonumuzu alaq. Sadəcə, dövlət başçımızın əmri ilə həlledici bir həmlə lazımdır. Bu da yəqin ki, olacaq".

**Nərgiz LİFTİYEVA**

## ""Reuters"ə atəşkəslə bağlı təkzib verməmişəm"

**Azərbaycan Xarici İşlər Nazirliyi "Reuters" xəbər agentliyinin atəşkəs barədə Azərbaycan XİN-ə istinadən verdiyi məlumatı təkzib edib.**

XİN-in mətbuat katibi Hikmət Hacıyev APA-ya bildirib ki, XİN-in sözçüsü kimi o, "Reuters"ə heç bir açıqlama verməyib: ""Reuters" kimi ciddi təşkilat tərəfindən belə bir məsuliyyətsiz xəbərin yayılması düzgün deyil".

Qeyd edək ki, "Reuters" Dağlıq Qarabağda atəşkəs elan olunmasına rəy öyrənmək üçün Azərbaycan XİN-in mətbuat xidmətinə müraciət etdiyini və nazirlikdən xəbərin təkzib olunduğunu bildirib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

## "İstərdik ki, İsrail baş verənlərə münasibət bildirsin"

**İsrail ötən həftənin istirahət günlərində yenidən alovlanan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətdə bitərəf qalmağa çalışır. AzərTAc xəbər verir ki, bununla bağlı Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov bazar ertəsi "Jerusalem Post" qəzetinə Bakıdan telefonla verdiyi müsahibədə deyib ki, ölkəmiz İsrailin bu məsələ barədə öz mövqeyini bildirməsində maraqlıdır.**

Jurnalistin "Siz hörmət və ehtiram bəslədiyiniz İsraildən nə gözləyirsiniz" sualının cavabında Əli Həsənov deyib: "Biz istərdik ki, İsrail burada baş verən hadisələrə münasibətini bildirsin. İsrail dünya birliyinin və ATƏT-in üzvü kimi Ermənistandan atəşi dayandırmasını, danışıqlara başlamasını və beynəlxalq hüquq normalarına hörmət etməsini tələb edə bilər".

Əli Həsənov bildirib ki, İsrail Azərbaycanın strateji tərəfdaşıdır. Azərbaycan öz tərəfdaşlarından gözləyir ki, onlar ölkəmizin işğal edilmiş ərazilərində qoşunların təmas xəttində Ermənistan tərəfindən törədilmiş aqressiv hərbi provokasiya ilə bağlı son hadisələrə münasibət bildirsin. O qeyd edib ki, Azərbaycan ordusu vətəndaşların təhlükəsizliyini qorumaq və öz mövqelərini müdafiə etmək üçün Ermənistan silahlı qüvvələrinə layiqli və sarsıdıcı cavab verib, onları geri çəkilməyə məcbur edib.

## Dəmirtaşdan separatçı ermənilərə dəstək

**Türkiyənin Xalqların Demokratik Partiyasının (HDP) həmsədri Səlahəddin Dəmirtaş ermənilərin mövqeyini dəstəkləyən bəyanatla çıxış edib. APA-nın "Hürriyet"ə istinadən verdiyi xəbərə görə, PKK terror təşkilatının siyasi qanadı olan HDP-nin Türkiyə Böyük Millət Məclisindəki qrup toplantısında çıxış edən Dəmirtaş cəbhə xəttində yaranan gərginliyə də münasibət bildirib.**




O, Azərbaycanla Ermənistanın danışıqlar masasına oturmasının vacib olduğunu deyib: "Türkiyə hökuməti bu yanğını körükləyir. Qarabağ muxtar bölgəydi, oradakı insanlar necə istəyirlərsə, elə yaşamalıdırlar. Onların istəklərinə hörmət edilməlidir. Bu məsələ hərbi yolla yox, sülh yolu ilə həllini tapmalıdır. Hazırda Qafqazda yeni savaş bir qətliama səbəb ola bilər. Lütfən, bu savaşı dayandırın".

## Putin Azərbaycan və Ermənistan prezidentlərinə zəng etdi

**Rusiya prezidenti Vladimir Putinin Azərbaycan və Ermənistan prezidentləri ilə telefon danışığı olub.**

APA-nın məlumatına görə, bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb.

V.Putin İlham Əliyev və Serj Sərkisyanla Dağlıq Qarabağdakı vəziyyəti müzakirə edib.

Rusiya prezidenti çoxsaylı insan itkisi ilə nəticələnən genişmiqyaslı hərbi qarşıdurma ilə əlaqədar ciddi narahatçılıq keçirdiyini söyləyib.

O, hər iki tərəfi təcili şəkildə hərbi əməliyyatları tam dayandırmağa və atəşkəs rejiminə əməl etməyə çağırıb.

## Cəbhədə savaş virtual aləmə də keçib

**Ermənilər cəbhədə gedən döyüşlərdən yararlanmağa çalışıblar. Onlar psixoloji təsir yaratmaq üçün "Ortaqdeyerler.com" saytının adından istifadə etməyə çalışıblar. Əvvəlcə sayta haker hücumu həyata keçirən düşmən burada saytın kontekstinə heç bir yaxınlığı olmayan informasiyalar yerləşdiriblər. Daha sonra saytın facebookda özəl səhifəsi yaradılıb.**

Səhifə məhz aprelin 2-də, yəni Qarabağda qarşıdurmaların qızışdığı anda yaradılıb. Bundan sonra saytda özlərinin yerləşdirdikləri materialları səhifədə paylaşan hakerlər insanların hissləri ilə oynamağa başlayıblar. Guya Azərbaycan ordusunun taleyindən xəbər verən qarşı tərəfin kəşfiyyat orqanları bununla da insanlara psixoloji təsir etməyə çalışıblar.

"Ortaqdeyerler.com" saytına haker hücumunun olması barədə danışan Aqil Camal isə bildirib ki, artıq sayta olunan hücumun qarşısı alınıb. Ermənilərin yaratdığı səhifə "Ortaq dəyərlər" adı ilə qeydiyyatdan keçib. İctimai birlik tərəfindən işlədilən əsl səhifə isə "QHT - Azərbaycan - ortaqdeyerler.com"dur.

"Ortaqdeyerler.com" saytı "Ortaq Dəyərlər" İctimai Birliyinin rəsmi internet ünvanıdır. Sayt Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə yaradılıb.

Bu arada Anti-armenia Team adlı azərbaycanlı hakerlər qrupu Rusiyanın ermənistandakı səfirliyinin rəsmi twitter səhifəsini dağıdıb. Rusiyanın atəşi dayandırmaqla bağlı verdiyi bəyanata etiraz edən hakerlər səfirliyin rəsmi twitter səhifəsində - Rusiya görür ki Azerbaycan ordusu Ermənistana layiqli cavab verir, dərhal atəşi dayandırmaq əmri verir, yaxşı olar ki, Ermənistana özgə torpaqlarında nə işi olduğunu soruşasınız?! - deyə mətn yerləşdirib.

**SEVİNC**

YENİ MÜSAVAT
N 72 (6393) 6 aprel 2016

# "Atəşkəs kövrək olacaq"

## Fəhmin Hacıyev: "Azərbaycan xalqı öz torpaqlarından heç zaman vaz keçməyəcək"

**Aprelin 2-dən başlayaraq cəbhədə davam edən gərginlik təkcə ölkəmizdə yaşayan vətəndaşlarımızı deyil, xarici ölkələrdəki soydaşlarımızı da ciddi narahat edir. Hər kəs müharibə barədə danışır, hər an döyüşməyə hazır olduğunu bəyan edir.**

Xaricdə yaşayan vətəndaşlarımız tərəfindən müharibə olarsa, ölkəmizə qayıdıb torpaqlarımızın azad edilməsi istiqamətində iştirakla bağlı fikirlər səslənir.

Hazırda Ukraynada yaşayan Daxili Qoşunların baş komandanı Fəhmin Hacıyevlə müharibə mövzusunda söhbət etdik.

***- Fəhmin bəy, son əməliyyatları necə dəyərləndirirsiniz?***

- Azərbaycan əsgəri ilə bir daha qürur duydum. Ayrıca xalqımızı bu kiçik qələbə münasibətilə təbrik edirəm. Bu əməliyyatlar bütün dünyaya bir mesaj oldu ki, Azərbaycan xalqı öz torpaqlarından heç zaman vaz keçməyəcək. Əvvəlki illərdən fərqli olaraq, beynəlxalq dəstəyimiz də daha yaxşı səviyyədə oldu.

***- Xaricdə çoxsaylı hərbçilərimiz var. Həmçinin siz. Ölkəyə qayıdıb döyüşlərdə iştirak edərsinizmi? Belə bir planınız var?***

- Xaricdə yaşayan hərbçilərin əksəriyyəti vətənə qayıdıb döyüşlərdə iştirak etmək istərdi. Amma bu məsələdə reallıqla hesablaşmalıyıq. Ordumuzda yüksək təlim görmüş gənc zabitlərimiz var və onlara güvənilməlidir. Mən də çox həvəslə vətənə dönüb torpaqlarımızın azad edilməsində iştirak edərdim.

***- Birinci Qarabağ müharibəsində iştirak etmisiniz. İndiki müharibə ilə həmin müharibənin fərqli və oxşar cəhətləri nədir?***

- Birinci Qarabağ müharibəsində nizami ordu tam formalaşmamışdı. Müharibənin ilk illərində ordumuz ümumiyyətlə yox idi. İndi şükürlər olsun ki, nizami ordumuz var. Oxşar cəhəti isə ordumuzun vətənpərvərlik səviyyəsinin yüksək olmasıdır.

***- Bu proseslərdə Azərbaycan hakimiyyətinə dəstək verirsinizmi?***

- Bu proseslərdə Azərbaycan hakimiyyətinə dəstəyimi ilk gündən sosial şəbəkələr vasitəsilə ifadə etmişəm. Dövlət müstəqilliyimizin qorunması, ərazi bütövlüyümüzün bərpa olunması məsələsində hakimiyyətin verdiyi bütün qərarları dəstəyirəm və icrasında iştirak etməyə hazıram.

***- Rusiya mətbuatı eyni ilə Ukrayna hadisələri vaxtı etdiklərini Azərbaycana münasibətdə təkrarlayır. Birtərəfli olaraq ölkəmiz əleyhinə yazılar verir. Buna münasibətiniz...***

- Rusiya mətbuatından ədalətli mövqe gözləmək ağılsızlıq olardı. Tarixdə dəfələrlə sübut olunub ki, Rusiyanın siyasi və hərbi elitası öz imperialist siyasətlərini həyata keçirmək üçün ermənilərdən bir alət kimi hər zaman istifadə ediblər və bu siyasət davam edir. Məndə olan məlumatlara görə, əməliyyatlar başlamamışdan əvvəl Rusiyadan bir qrup peşəkar hərbçi İrəvana gedib və orada qalmaqda davam edirlər. Diqqətə almaq lazımdır ki, Ukrayna və Azərbaycanın Rusiyanın təsir dairəsindən uzaqlaşması Rusiyanın bir imperiya kimi məhvinə bərabərdir. Bunu ruslar anlayır və hər vəchlə gedən proseslərin qarşısını almağa çalışır. Mən hətta Rusiyanın ölkəmizə qarşı bəzi təxribatlarının olacağını da istisna etmirəm. Amma bundan qorxmaq lazım deyil. Rusiya bir imperiya kimi sürətlə zəifləyir və çox yaxın zamanlarda şimali Qafqaz xalqlarını milli-azadlıq mübarizəsinin yeni dalğasının başlayacağına inanıram.

***- Bu əməliyyatlar, sizcə, çoxmu davam edəcək?***

- İndiki mərhələdə bu əməliyyatların nə qədər sürəcəyini söyləmək çətindir. Onu deyə bilərəm ki, qarşımızdakı illərdə regionda həyəcanlı hadisələrin olacağı gözləniləndir. Allahdan bütün şəhidlərimizə rəhmət diləyirəm. Başın sağ olsun, Vətən!

***- Sabiq müdafiə naziri Səfər Əbiyevlə indiki nazir Zakir Həsənovun fəaliyyətini müqayisə etmək olarmı? Sizcə, Əbiyev hazırda nazir olsaydı, ordumuz bu şəkildə güclü olardımı? Ümumiyyətlə, Zakir Həsənovun fəaliyyəti sizi qane edirmi?***

**"Səfər Əbiyev heç zaman orduda nüfuz sahibi olmayıb"**

- Səfər Əbiyev heç zaman orduda nüfuz sahibi olmayıb və intizamlı ordu yaratmağı bacarmayıb. Cənab nazir Zakir Həsənov isə əsl ordu generalıdır və Azərbaycan əsgərinin adını çox yüksəltdi. Zakir Həsənovun apardığı islahatlar da ordu quruculuğuna müsbət təsir etdi.

***- Sizcə, əməliyyatlar davam etdirilməlidirmi? Beynəlxalq və mövcud şəraitimiz buna imkan verirmi?***

- Mən döyüş əməliyyatlarının davam etdirilməsinin tərəfdarıyam. İşğal altında olan torpaqlarımızı azad etmək bizim doğal haqqımızdır və əgər nəticə uğurlu olacaqsa, beynəlxalq aləm bununla barışmalı olacaq. O ki qaldı mövcud şəraitimizə, bu, bir az kövrəkdir. Regionda gedən geosiyasi proseslərin sonunun bizim xeyrimizə olacağına heç bir şübhəm yoxdur. Amma Rusiya hələ də dünya siyasətində əsas oyunçulardan biridir. Zəifləməsi prosesi gedir, amma bizim istədiyimiz səviyyədə deyil. İkinci əsas səbəb isə odur ki, Azərbaycanda beynəlxalq qurumlar tərəfindən mübahisəsiz tanınan legitim hakimiyyət formalaşmayıb.



**"Zakir Həsənov əsl ordu generalıdır"**

***- Ukraynadan gözlədiyimiz dəstəyi ala bilmədik... Gələcəkdə Ukrayna hakimiyyətinə orada yaşayan azərbaycanlılar adından müraciətiniz ola bilərmi?***

- Ukraynadan gözlənilən dəstəyin verilməməsinə görə məyusam. Ukraynada yaşayan azərbaycanlılar adından müraciət gözləniləndir. Ümid edirəm ki, Ukraynanın siyasi dairələri Azərbaycanın yanında olduqlarını bəyan edəcəklər.

***- Aprelin 5-də atəşkəs xəbərləri yayıldı. Hər iki tərəfdən döyüşlərin dayandırılması mümkündürmü və sakitçilik yaranarsa davamlı olacaqmı?***

- Əməliyyatların uzun sürməyəcəyini bildirmişdik. Həmişə olduğu kimi, atəşkəs kövrək olacaq.

❑ **Cavanşir ABBASLI**

# Rusiya televiziyası ermənidən çox erməni rolunda

## Dağlıq Qarabağ münaqişəsinin müzakirəsində bir azərbaycanlı ekspertin qarşısına onlarla erməni, rus çıxarılır




**Azərbaycanla Ermənistan arasında Qarabağda başlanan silahlı döyüşlər aprelin 5-də dayandırıldı. Azərbaycan ordusunun zəfərləri dünya mediasının da diqqət mərkəzindədir.**

Amma bu məsələdə Rusiya mediasının sərgilədiyi qeyri-obyektiv mövqe xüsusilə fərqlənir. Bugünlərdə Rusiyanın ORT kanalında efirə gedən "Vremya pokajet" ("Zaman göstərər") adlı verilişdə Dağlıq Qarabağ münaqişəsi müzakirə olunub. Müzakirələrdə ekspert qismində siyasətçilər, politoloqlar, jurnalistlərlə yanaşı, vətəndaşlar da iştirak edib. Qonaqlar veriliş boyunca öz kəskin və birmənalı mövqeləri ilə fərqləniblər.

Verilişdə diqqəti çəkən əsas nüans isə qonaqların, ekspertlərin, eləcə də moderatorun ermənipərəst mövqeyi idi. Milliyyətcə rus olan ekspertlər belə ermənilərdən daha çox erməni, qeyri-obyektiv və yalançı mövqeləri ilə fərqlənirdi. Faktların təhrif olunması, mətləbdən yayınma, tarixi faktları inkar... xəttini tutan qonaqlara Azərbaycan mövqeyindən cavabı isə İHLAS agentliyinin müxbiri Fuad Abbasov verirdi. Səlis rus dili bilgisi, faktları konstatasiya bacarığı və polemika mədəniyyəti ilə F.Abbasov "yüz nəfərə qarşı bir nəfər" məntiqi ilə vuruşurdu. Jurnalistika qanunları və meyarlarına sözün birbaşa mənasında tüpürən moderator Pyotr Tolstoy, eləcə də yardımçı moderatorlar müdaxilələrində, dikskussiyanı yönləndirmələrində açıq-aşkar erməni mövqeyini müdafiə edir, hətta bunu gizlətməyə belə ehtiyac duymurdu. Hətta müzakirə zamanı özünü bitərəf göstərməyə çalışan ekspertlərdən biri ümumi atmosferi görüb "sanki bütün ermənilər bura yığıblar" replikasını atmağı da unutmadı. Müzakirələr zamanı isə sətiraltında Moskvada ruslardan çox ermənilərin yaşaması faktı qabardıldı.

Eyni mənzərə TV4-ün efirində gedən "Pravo qolosa" adlı verilişdə də özünü göstərir. F.Abbasov yenə də eyni mövqedə, rus aparıcının, erməni qonaqların əhatəsində Azərbaycanı, Dağlıq Qarabağı, onun mövqeyini müdafiə etməyə çalışır.

Maraqlıdır ki, verilişdə F.Abbasovun kəskin arqumentləri qarşısında aciz qalanlardan biri - Rusiya Federasiyası Konseyinin üzvü ona "siz çox tərbiyəsiz, qaba və görməmiş bir insansınız. Sizi bu cür proqramlara çağırmaq bir yanlışdır" deyərək etiraz edib. Hətta bir nəfərin alternativ fikri belə ciddi aqressiya doğurub.

F.Abbasov isə sosial şəbəkədə bu verilişlərin linklərini paylaşıb və olanlarla bağlı məlumat verib.

Bütün hallarda sual öz aktuallığını qoruyur: Rusiya mediasının qeyri-obyektiv mövqeyi niyə bu qədər qabarıqdır? Jurnalistika, media prinsiplərinin tapdanması, aşırı ermənipərəstlik Rusiya mətbuatı üçün hansı səbəbdən prioritetlərə çevrilib? Söhbət təkcə dini ortaqlıqdan gedir, ya Rusiyada ermənilərin çoxluğundan?

**"Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyev hesab edir ki, bu, Rusiya mətbuatının yox, Rusiya dövlətinin ermənipərəst mövqeyidir. Onun fikrincə, söhbət əvvəlcədən düşünülmüş bir plandan gedir:** "Rusiya mətbuatının daha öncə Gürcüstanla, Ukrayna və Suriya, indi də Qarabağla bağlı mövqelərini müqayisə etsəniz, görərsiniz ki, eyni davranışdır. Nə jurnalist etikası, nə peşəkarlıq. Sadəcə, siyasi sifariş və ölkələrdən birinə qarşı hücumlar. Bu, dövlət tərəfindən verilən sifarişin bəzi kanallar və onların aparıcıları tərəfindən yerinə yetirilməsidir və çox təhlükəli simptomdur. Mən uzun müddət o proqramların izlənilməsi ilə professional şəkildə məşğul olmuşam. Bu, dövlətin hər hansı planından xəbər verir və ictimai rəyi əvvəlcədən yönəltmək məqsədi güdür. Bundan çıxış edərək hazırda Qarabağdakı toqquşmanın bu cür uzanması, Rusiya dövlətinin bu cür susub, medianın isə qabağa verilməsi məndə çox böyük təhlükə və narahatlıq doğurur. Mən düşünürəm ki, bunu mütləq Azərbaycan dövləti, Azərbaycan mediası da nəzərə almalıdır ki, Rusiya dövlətinin üzdə sakit mövqeyi, amma mediada apardığı təbliğat çox pis bir sonluqdan xəbər verir. Buna görə də belə şeylərdə son dərəcədə ehtiyatla davranmalı və Azərbaycan hakimiyyəti bunu nəzərə almalıdır. Son gərginliyin başlanmasında ermənilər qabağa düşüb. Rusiyanın məlumatı olmadan bu proses başlana bilməzdi. İndi Rusiyanın bunu, sadəcə, izləməsi onun bir taktik planından xəbər verir".



**Arif Əliyev:** "Bu, Rusiya dövlətinin hər hansı planından xəbər verir və ictimai rəyi əvvəlcədən yönəltmək məqsədi güdür"

**"Niyə bu verilişlərə rus dilini mükəmməl bilən azərbaycanlı ekspertləri, jurnalistləri çıxarmırlar" sualına cavabda A.Əliyev bildirdi ki, bu, məqsədli şəkildə belə edilir:** "Azərbaycan kanalına hər hansı münaqişədə əks tərəfin adamları sərbəst çıxa bilərmi? Rusiyanın da kanalları Azərbaycan kanallarından qat-qat artıq ideoloji nəzarət altındadır. Ukrayna, Gürcüstan, Suriya məsələlərində də belə idi. Bir nəfər çıxarılırdı, hamı tökülüşürdü onun üstünə. Aparıcılar da işğalçıların mövqeyindən çıxış edirdi. Bu, ssenaridir. Ssenari də Rusiyanın Prezident Aparatından verilir. O yerdə ki, siyasi sifariş olmur, orda müxtəlif improvizasiyalara yer verilir. Rusiya hakimiyyəti bu kanallara Azərbaycanı sifariş verir".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 72 (6393) 6 aprel 2016



# Azərbaycan ABŞ-dan istədiyi dəstəyi aldı

## Nüvə sammitinin ölkəmiz üçün müsbət nəticələri olacaq; **politoloq:** "Azərbaycan və Türkiyənin Qərb üçün əhəmiyyəti ölçüyə gəlməyəcək dərəcədə artır"

**Aprelin 1-də Vaşinqtonda keçirilən IV Nüvə Təhlükəsizliyi Sammiti geniş müzakirələrə yol açıb. Sammitdə Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı, keçirdikləri görüşlər ciddi diqqət çəkib.**

Ölkə başçısının ABŞ-da yüksək səviyyədə görüşlərini ekspertlər Azərbaycan-ABŞ münasibətlərində dönüş nöqtəsi kimi dəyərləndirərək, sammitin gələcək acısından ölkəmiz üçün müsbət sonuclarının olacağını proqnozlaşdırırlar. Eyni zamanda Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində də nüvə sammitinin müsbət nəticələrinin olacağına inananlar az deyil.

Azərbaycan prezidentinin ABŞ səfəri ilə bərabər Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın da sammitdə iştirakı və Barak Obama ilə görüşü günlərdir mətbuatın gündəmindən düşmür. Politoloqlar sammitin qardaş ölkəyə Rusiya ilə gərgin münasibətlərdə dəstək olacağını hesab edirlər.

**Politoloq Qabil Hüseynli** nüvə sammitinin Azərbaycan üçün böyük əhəmiyyətinin olduğunu qeyd etdi: "Azərbaycan tərəfinin sammitdə kütləvi qırğın silahlarına olan münasibəti özünü açıq şəkildə göstərdi. Bu, Azərbaycanın sülhməramlı siyasətinin açıq ifadəsi idi. Biz nəinki nüvə silahını əldə etmək istəyirik, eyni zamanda bu cür silahların ölkə ərazindən keçirilməsinə imkan verilməyəcəyini bəyan etdik. Azərbaycanın imzaladığı beynəlxalq konvensiyalarda bunlar öz əksini tapıb. Bir neçə il bundan əvvəl iki İran vətəndaşı tərkibində radioaktiv maddələr olan təhlükəli maddəni sərhəddən keçirərkən gömrük işçilərimiz tərəfindən yaxalanmışdılar. Radioaktiv maddənin daşıyıcısını Azərbaycan Beynəlxalq Atom Enerjisi Mərkəzinə təslim etmişdi. Nüvə sammitində Azərbaycanın bu hərəkəti Barak Obamanın çıxışında nümunəvi addım kimi hamıya göstərildi. Sammitdə Azərbaycanın beynəlxalq nüfuzunu gücləndirəcək bir sıra görüşlər keçirildi. Xüsusilə Barak Obama, vitse-prezidentlə, dövlət katibi və digər şəxslərlə görüşlər sözün həqiqi mənasında Azərbaycan üçün prinsipal əhəmiyyət daşıyan müsbət rol oynadı. Onu da nəzərə almaq lazımdır ki, cənab İlham Əliyevə Amerikada yüksək səviyyədə qarşılanma mərasimi təşkil olundu. Bu, Azərbaycanın regionda lider dövlət olduğunu təsdiq edən amillərdən biridir. Prezidentin sammitdə iştirak etmək üçün ABŞ-a dəvət olunması onu göstərdi ki, Azərbaycanın xarici siyasətində qərbyönlü siyasət əsas yer tutmağa başlayıb. Azərbaycan-Qərb münasibətlərində mühüm addımlar atıldı. Azərbaycan özünə ciddi müttəfiqlər əldə edə bildi. Bütün bunlar Azərbaycanın inkişafı üçün böyük əhəmiyyətə malik olacaq".

**Politoloq Ərdoğan-Obama görüşünü region acısından təhlil etdi:** "Ərdoğan əvvəlki çıxışında Rusiyaya çağırış etdi. Münasibətlərin bərpa olunması təklifini etdi. Türkiyə rəhbəri münasibətlərin bərpa olunmasının regiondakı problemlərin həllində vacib mərhələ olduğunu söylədi. Rusiya tərəfi özünü naza çəkdi. Amma Obama Ərdoğanla görüşdə Türkiyənin yanında daim olduqlarını bəyan etdi. Rusiyada gerçəkliyi indiyə qədər qəbul etməyən başlar artıq anladılar ki, Türkiyəyə qarşı münasibət NATO-ya yönəlmiş münasibətdir. Qarabağ münaqişəsinin həlli istiqamətindəki işlər müəyyən bir mərhələyə çatdıqdan sonra Türkiyə-Rusiya münasibətlərində də bir açılım olacaq. Kiçik şəkildə olsa da, bu açılımın müəyyən izləri görünməkdədir. Gələcəkdə daha irimiqyaslı acılıma çevrilə bilər. Türkiyə-Rusiya münasibətlərinin düzəlməsi Dağlıq Qarabağ probleminin həllinə də kömək edə bilər".

**Q.Hüseynli İlham Əliyev-Obama və Ərdoğan-Obama görüşlərinin dünya gündəminə oturmasına da münasibət bildirdi. Müsahibimiz Azərbaycan prezidentinin ermənilərlə döyüşlərdə, Türkiyə prezidentinin isə kürd problemində ABŞ-ın dəstəyini aldıqlarını da qeyd etdi:** "Hər iki dövlət başçısı Amerikanın dəstəyini güman edirəm ki, aldılar. Əvvəla, ABŞ çoxdan PKK-nı terror təşkilatı elan edib. Son zamanlarda ABŞ-ın beynəlxalq siyasətində terrorizmə qarşı münasibət başlıca siyasətə çevrilib. Ona görə çətinlik çəkmədən Ərdoğan bu məsələdə Amerikanın dəstəyinə nail ola bildi. Avropada da PKK məsələsi ilə bağlı ciddi dönüş var. Azərbaycan da həmçinin. Əfqanıstan məsələsində ABŞ-la birlikdə etdiyimiz hərəkət bu gün öz müsbət nəticələrini verir. Bu baxımdan Ərdoğan və İlham Əliyevin nüvə sammitində Amerikadan istədikləri dəstəyi aldıqlarını düşünürəm".

❑ **Cavanşir ABBASLI**

# Müharibə dayandı, amma bitmədi...

**Dağlıq Qarabağ münaqişəsi zonasında aprelin 2-dən başlayan hərbi əməliyyatlarda qarşılıqlı razılıq əsasında növbəti atəşkəs əldə olundu. Belə görünür, bunda ən çox düşmən tərəf maraqlı idi. Hər halda, erməni KİV-lərindəki bədbin ab-havadan bunu sezmək çətin deyildi. Təbiidir, çünki işğalçı tərəf hər gün daha ağır itkilərlə üzləşməkdə idi.**




# 4 günlük blits-savaşın əsas yekunu - dünyaya mesaj, düşmənə dərs...

## Şəhid qanı ilə möhkəmlənən qələbə əzmi, sındırılan "məğlubiyyət sindromu", daha nələr...; Azərbaycan Qarabağ məsələsində son sözün ona məxsus olduğunu dünyaya nümayiş etdirdi; erməni nəşrindən iddia: "Rusiya rayonları qaytarmaq üçün Ermənistanı dilə tutur..."

Əlbəttə ki, yaxşı olardı ki, atəşkəs rejimi ən azı, bir rayonumuzun işğalçıdan azad olunmasından sonra qüvvəyə minəydi. Amma Azərbaycan prezidenti İlham Əliyev də atəşkəsə bir şərtlə razılıq verildiyini bəyan elədi: **"İşğalçı tərəf bundan istifadə eləməsin və ərazilərimizdən rədd olub getsin!.."**

Bununla belə, 4 günlük müharibənin ölkəmiz üçün əsas pozitiv nəticəsi, bizcə, budur ki, Azərbaycan 22 illik atəşkəs dövründə ilk dəfə hərbi gücə əl ataraq ağır itkilər bahasına da olsa dünyaya, işğalçıya, onun havadarlarına, xüsusən də Rusiyaya nümayiş etdirdi ki, dövlət, millət olaraq öz ərazilərinin, Qarabağın işğalı ilə barışmayıb, heç vaxt barışmayacaq və bu yolda qələbə əzmini də saxlayır. Bütün dünyaya xatırlatdı ki, bu millət, onun dövləti və ordusu birlikdədir, yekdildir və torpaqlarının azadlığı yolunda hər şeyə hazır və qadirdir.

Bu günlər həmçinin Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasının vacibliyi məsələsi kifayət qədər ciddiliyi ilə beynəlxalq ictimaiyyətin gündəminə gəldi. Əksər ölkələr *(Türkiyə, İran, Pakistan, Ukrayna, Belarus, Gürcüstan, bir çox Avropa ölkələri)* və nüfuzlu qurumlar ərazi bütövlüyümüzə sayğı nümayişi etdirən bəyanatlar yaydılar, sərhədlərin zorla dəyişdirilməsinə qarşı öz etiraz səslərini qaldırdılar.

İkinci mühüm nəticə Azərbaycan Ordusunun işğalçı ordu üzərində texniki, hazırlıq və başqa göstəricilərə görə üstünlüyünün təsdiqlənməsi idi - hansı məqamı ki, bir sıra Qərb və rusiyalı hərbi ekspertlər döyüş əməliyyatlarının gedişindəcə qeyd eləmişdilər. Bu da ilk növbədə Türkiyə-Azərbaycan hərbi əməkdaşlığı sayəsində mümkün olub və bu əməkdaşlıq sözsüz ki, indi daha da dərinləşəcək.

Azərbaycan özünün blits-zəfəri ilə həmçinin işğalçı ölkənin arxayınçılığına son qoymuş oldu, "yumsaq güc" nümayişi ilə ona və onun havadarlarına mesaj və dərs verdi ki, növbəti və daha əlverişli regional şərtlər yetişən kimi ona daha sarsıdıcı və sonuncu həlledici zərbəni endirəcək. Özü də bu zərbə uzaq tarixə qalmayacaq - çox şey blits-müharibədən öncəliklə Minsk Qrupu həmsədrlərinin hansı nəticə çıxaracağından asılı olacaq.

Əgər onlar ənənəvi şəkildə işğalçı ilə işğala məruz qalan tərəfə eyni gözlə baxaraq, BMT TŞ-nin, Avropa Şurası və Avropa Parlamentinin, NATO Parlament Assambleyasının, İslam Əməkdaşlıq Təşkilatının, digər mötəbər təşkilatların Dağlıq Qarabağa dair dünya birliyinin iradəsini əks etdirən qətnamələrini qulaqardı edəcəksə, o zaman həlledici savaş özünü çox gözlətməyəcək. Azərbaycanın milli maraqları üçün bir qiymətli mesaj-çatdırış da bundan ibarətdir.

Məsələ də ondadır ki, kimin, hansı qüvvənin rəvac verməsindən asılı olmayaraq, Azərbaycanın son 4 gündə düşmənə endirdiyi sarsıdıcı zərbə həm də danışıqlar prosesində status-kvonu xeyrimizə dəyişməyə yönəlmişdi və əslində bu hədəfə də müəyyən mənada nail olundu. Bu da blits-zəfərin başqa bir uduşu sayıla bilər. Hər halda, bundan sonra Azərbaycanın əsas probleminə beynəlxalq birliyin, vasitəçi dövlətlərin daha həssas yanaşmasını gözləməyə dəyər.

Yeri gəlmişkən, məhz dünən - atəşkəs günündə Rusiya xarici işlər nazirinin sabah gözlənilən Bakı səfəri Ermənistan KİV-lərinin əsas mövzusu olub. "Aykakan Jamanak" qəzetinin yazdığına görə, Qarabağ konflikti ətrafında artıq yeni pərdəarxası proses başlayıb. **"Söhbət Dağlıq Qarabağ ətrafındakı bir neçə rayonun Azərbaycana qaytarılmasından gedir. Hakimiyyətə yaxın mənbənin iddiasına görə, Rusiya bundan ötrü Ermənistanı dilə tutmağa çalışır, əvəzində isə Azərbaycanın Avrasiya Birliyinə qoşulacağına ümid edir"** - nəşr qeyd edib.

***

4 günlük müharibə habelə uzun illər milləti içəridən yeyən "məğlubiyyət sindromu"ndan nəhayət ki, onun böyük ölçüdə çıxmasını təmin etdi, toplumu qısa zamanda toparlayıb bir araya gətirməklə, onda qəti qələbəyə inamı və əzmi birə-on möhkəmlətdi, millətin belini və başını dikəltdi.

Adekvat surətdə düşməndə məğlubedilməzlik mifini dağıtdı. Xocalı canisi Serj Sərkisyanın "kompomislərə hazırıq" deməsi sözsüz ki, ən əvvəl bunun təzahürü idi. Azdır?

Əlbəttə ki, müharibədə şəhid də olacaq, başqa itki və məhrumiyyətlər də. Bu yerdə "bunca şəhid verməyə dəyməzdi" deyən bəzi skeptiklərin qənaəti ilə razılaşmaq çətindir. Onların məntiqinə görə, 1994-cü ilin 12 mayına - atəşkəsədək olan şəhidlərimiz də boşuna vuruşubmuş.

Allah şəhidlərimizə rəhmət eləsin, amma əlbəttə ki, belə deyil. Şablon çıxmasın, "Torpaq uğrunda ölən varsa, Vətəndir!" Bu mənada bir neçə kəndin, yüksəkliyin geri alınması yuxarıda sadalanan pozitivlər və böyrümüzdəki yırtıcı Rusiya amilinin mövcudluğu fonunda balaca uğur deyil, bütövlükdə düşməndən üstün olduğumuzun təsbitidir.

Digər yandan, niyə unudulur ki, işğalçı daha çox itki verib? Düşünmürük ki, erməni anaları buna görə Sərkisyanın başını tumarlayacaqlar...

Bu savaşın başqa pozitiv yekunu kimi, bölgəyə, Azərbaycana "sülhməramlı" bəhanəsi ilə hərbi qüvvə yerləsdirmək üçün əldən gedən Rusiyaya bəhanə verilməməsi də nəzərdən qaçırılmamalıdır. Çünki sonuncu eskalasiyanın arxasında "rus barmağı"nın olması haqda ciddi dəlillər var idi...

Rusiyanın Azərbaycanda öz hərbi mövcudluğunun bərpası isə nəinki Dağlıq Qarabağın, bütövlükdə Azərbaycanın suverenliyinin itirilməsinə gətirərdi. Hələ ki bunların heç biri baş verməyib və yenə son söz Azərbaycan xalqının olaraq qalır. Blits-savaşın daha bir mühüm yekunu budur.

❑ **Zahid SƏFƏROĞLU**

YENİ MÜSAVAT

N 72 (6393) 6 aprel 2016



# Ordumuz ermənilərin atəşini də kəsdi, nəfəsini də!

## Müharibə dayandı, həmsədrlər regiona gəldi; şəhidlərimizin sayı artdı; yaralı əsgərlərlə görüşən prezident İlham Əliyev “döyüş əməliyyatları dayandırılır, amma bir şərtlə ki...”

**Prezident İlham Əliyev aprelin 5-də Müdafiə Nazirliyinin Hospitalında müalicə olunan yaralı hərbçilərə baş çəkib. Ali Baş Komandan yaralı hərbçilərlə görüşdə əsgərlərə göstərdikləri qəhrəmanlığa görə minnətdarlıq edib: “Azərbaycan xalqı sizinlə fəxr edir. Döyüşlərdə yaralanmısız, ancaq qələbəni qazanmısız.**

Siz torpaqların azad edilməsi üçün artıq nə lazımdır eləmisiniz. Azərbaycan ordusu düşmənə layiqli cavab verib, düşmən təxribatının qarşısını aldı və təmas xəttində yaranmış vəziyyət onu göstərir ki, doğrudan da Azərbaycan ordusu, Azərbaycan əsgəri, zabiti böyük işlərə qadirdir, qəhrəmandır”.

**Sonra prezident hospitalda cəbhə bölgəsində yaralanmış və şəhid olmuş hərbçilərin ailə üzvləri ilə görüşüb. İlham Əliyev deyib ki, Azərbaycan ordusu təmas xəttində öz üstünlüyünü daha da möhkəmləndirib:** “Erməni işğalçılarının bu təxribatlara əl atması birinci dəfə deyil. Mən dəfələrlə demişəm ki, onlar işğal olunmuş torpaqları daim öz nəzarətlərində saxlamaq istəyirlər, sülh istəmirlər, danışıqlar prosesində özlərini qeyri-səmimi aparırlar. Bütün beynəlxalq, əxlaqi normaları pozublar, mülki əhaliyə atəş açırlar. Bu hadisələrdən bir neçə gün əvvəl Ermənistan-Azərbaycan sərhədində, Qazax istiqamətində təxribat törədiblər və hərbçilərimiz həlak olub. Bu hadisələr zamanı daima bizim kəndlərimizi atəşə tuturlar, mülki əhalidən həlak olanlar var. 300-ə yaxın evə ziyan vurulub. Onların hərəkətləri budur. Azərbaycan ordusu, əsgərləri heç vaxt mülki əhaliyə qarşı vuruşmayıb, vuruşmur və vuruşmayacaq. Qəhrəman Azərbaycan ordusu, əsgərlərimiz düşmənin təxribatının qarşısını aldı, layiqli cavabını verdi. Biz əsgərlərimizlə, onları böyüdən valideynlərlə fəxr edirik. Həkimlər yaralı əsgərlərin hamısının sağalacağını bildirdilər. Sağlamlıqları tam bərpa olunmalıdır, bərpa olunacaq. Bunun üçün həkimlər əllərindən gələni edirlər və edəcəklər”.

**Prezident bildirib ki, Azərbaycanın ərazi bütövlüyü heç vaxt müzakirə mövzusu olmayıb və olmayacaq. Ermənistan rəhbərliyi səhvini başa düşüb, danışıqlar masasında özünü səmimi aparırsa, məsələnin sülh yolu ilə həlli üçün imkanlar var:** “Azərbaycan bu gün bir daha bəyan edir ki, birtərəfli qaydada bütün döyüş əməliyyatlarını dayandırır. Amma bir şərtlə ki, qarşı tərəf bundan istifadə etməsin. Onlar da atəşi dayandırsınlar, olduqları yerlərdə qalsınlar, tərpənməsinlər. Biz öz torpağımızdayıq, başqasının torpağında gözümüz yoxdur, heç bir başqa ölkənin torpağını işğal etməmişik. Amma heç kimə imkan verməyəcəyik ki, bizim torpağımızda hökmranlıq etsin. Artıq Azərbaycan dövləti də, ordusu da güclüdür. Bu gün müalicə alan əsgərlərimiz bunun ən gözəl sübutudur. Azərbaycan ordusu təmas xəttində tam üstünlüyə nail olub”.

### Atəşkəs elan olundu

Prezidentin yaralı hərbçilərlə görüşündən az sonra Azərbaycan Müdafiə Nazirliyi cəbhədə atəşkəsin elan olunması haqqında məlumat yayıb. Məlumatda deyilir ki, aprelin 5-də saat 12.00-dan etibarən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində tərəflərin razılığı ilə əməliyyatlar dayandırılıb. Müdafiə Nazirliyi bəyan edib ki, silahlı qüvvələrimizin bölmələri azad edilmiş torpaqlarda möhkəmləndirmə işlərini həyata keçirir.

Azərbaycanın işğal olunmuş torpaqlarında yaradılan separatçı “Dağlıq Qarabağ rejimi” də cəbhədə atəşin dayandırıldığı barədə məlumat yayıb. Bu barədə separatçı rejimin “mətbuat xidmətinin” rəhbəri Senor Asryan məlumat yayıb. Bildirilib ki, Ermənistanla Azərbaycan arasında atəşin dayandırılmasına dair ikitərəfli razılaşmanın hazırlanmasına başlanılıb.

Erməni tərəfinin məlumatına görə, 5 aprel saat 12-dən atəşkəs haqqında razılıq əldə olunub.

Beləliklə, 1994-cü ilin mayında əldə edilmiş atəşkəsdən indiyə qədər ilk dəfədir ki, Azərbaycan hərbi əməliyyatlarda işğalçı Ermənistan ordusunun geri çəkilməsini, dizinin yerə gəlməsini təmin etdi. Azərbaycan şəhidlər verməsinin, ağır döyüşlərin hesabına olsa da dünyaya, Ermənistana, Rusiyaya sübut elədi ki, Qarabağdan heç vaxt vaz keçməyib və keçməyəcək, Qarabağ məsələsində Azərbaycan xalqı istənilən an hərəkətə gəlmək iqtidarındadır. Sübut elədi ki, işğalçı ermənilər işğal etdikləri torpaqlarda rahat yaşaya bilməyəcəklər. Azərbaycan dövlətinin, xalqının, ordusunun öz torpaqlarını güzəştə getmək fikrində olmadığı bu bir neçə günlük müharibədə dünyaya sübut edildi. Elə ilk gündə Azərbaycan tərəfi atəşi dayandırmaq haqqında qərar qəbul eləmişdi, amma hücumlar davam elədi. Atəşkəs elan olunsa belə biz geri çəkilən tərəf olmadıq, yeni torpaqlar alındı, ruh yüksəkliyi yarandı. Ermənistan anladı ki, qarşısında 1990-cı illərdə əzdiyi silahsız, könüllü qruplaşmalar deyil, milyardla ölçülən büdcəsi olan nizami Azərbaycan ordusu var. 2-3 belə “atəşkəs pozulmasından” sonra Şuşada olacağıq. Pessimist olmağa, depressiyaya düşməyə heç bir əsas yoxdur!

### Deputat: “Ordumuz parlaq qələbəsi...”

**Milli Məclisin deputatı, “Azərbaycan” qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, aprelin 2-dən sonra cəbhədə baş verənləri Azərbaycan ordusunun parlaq qələbəsi saymaq olar:** “Aprelin 2-dən ordumuz böyük sücaət göstərdi. Azərbaycan xalqı öz ordusu ilə ürəkdən fəxr edir, torpaqlarımızın tamamilə azad olunacağına əminlik yaranıb. Etiraf edim ki, bəzən bizim özümüzün torpaqların qaytarılmasına ümidimiz ölmüşdü. Bu ümidlər yenidən dirçəldi. Elə bil biz yenidən doğulduq. İndi xalqımızda elə bir ruh yüksəkliyi yaranıb ki, bunu vaxtilə müstəqillik uğrunda xalq hərəkatında əldə etdiyimiz uğur zamanı yaranmış ruh yüksəkliyi ilə müqayisə etmək olar. Qələbə sevincinin nə olduğunu biz bu bir neçə gündə yaşadıq. Mən ordumuzla, Ali Baş Komandanımızla buna görə fəxr edirəm. Ordumuz axır vaxtlar çox quduran erməni ordusunu darmadağın elədi. Müharibədə ən mühüm amillərdən biri xalqda ruh yüksəkliyi, orduya, dövlətə inamdır. Bu gün Azərbaycanda bu amillər ən yüksək səviyyədədir. Artıq əminik ki, torpaqlarımızın hamısı azad olunacaq”.

**Deputat bəyan etdi ki, aprelin 2-dən cəbhədə baş verənlər Qarabağ savaşında əsl dönüş nöqtəsidir:** “Biz düşməni sındırdıq, onun özündənrazılığına, arxayınlığına misli görünməmiş zərbə vurduq. Biz bir neçə ciddi strateji nöqtələri almaqla çox böyük əraziləri almışıq. Ona görə də bu hadisəni həlledici dönüş adlandırıram. Bundan sonra şərtləri biz diktə edəcəyik”.



**İlham Əliyev hərbi hospitalda: “Xalq sizinlə fəxr edir”**

### Siyasi ekspert: “Qarabağ milləti bütövləşdirən təməl faktordur”

**Siyasi ekspert Şahin Cəfərli isə bildirdi ki, ilkin reaksiyalardan belə görünür ki, atəşkəs qərarı Azərbaycan cəmiyyətində müəyyən məyusluq yaradıb, cəmiyyət dayanmamaq, irəliləmək istədiyini nümayiş etdirir. Çünki 1994-cü ildən bəri ilk dəfə idi ki, Azərbaycan dövləti itirilən ərazilərini geri qaytarmaq üçün real addımlar atmağa başlamışdı və cəbhədən gələn xəbərlər insanlarda ruh yüksəkliyi, böyük ümid oyatmışdı:** “Qarabağ müharibəsində məruz qaldığımız məğlubiyyətlər və qətliamlar şüuraltı olaraq millətimizdə bir ”Qarabağ travması" yaratmışdı və toplumumuz bu travmadan bir an öncə qurtularaq qalib millət kimi özünü təsdiqləmək arzusunda idi. Bu məsələnin sosial-psixoloji tərəfləri yəqin ki, önümüzdəki günlərdə ənənəvi və sosial mediada, cəmiyyətdə əsas müzakirə mövzularından biri olacaq. Hələlik qısaca onu deyək ki, cəbhədə əldə edilən hərbi uğurlar Azərbaycan xalqının özünəinam hissini ciddi şəkildə artırdı və onu birləşdirdi. Məlum oldu ki, cəmiyyətimizdəki irili-xırdalı problemlərə, siyasi fikir ayrılıqlarına, hətta siyasi xarakterli düşmənçiliklərə, barışmaz münasibətlərə rəğmən, xalq hər an milli vəzifə naminə ayağa qalxmağa və bir araya gəlməyə hazırdır. Qarabağ məsələsinin milləti bütövləşdirən təməl faktor olduğu ortaya çıxdı. Bu, çox önəmlidir və hər kəs, xüsusən Azərbaycanı idarə edənlər və hakimiyyət iddiası olan müxalif qüvvələr sonrakı fəaliyyətlərində nəzərə almalıdır".

**Ş.Cəfərli hesab edir ki, Qarabağ probleminin həllində yeni mərhələ başlandığını qətiyyətlə söyləyə bilərik:** “Biz artıq həll prosesində fərqli bir mənzərənin, fərqli yanaşmaların şahidi olacağıq. Danışıqlar prosesi daha konkret məsələlər ətrafında aparılacaq və nəticə olacaq. Azərbaycanın keçirdiyi lokal hərbi əməliyyatlara Rusiyanın göz yumması çox önəmli məsələdir və ayrıca diqqət tələb edir. Bunun həm mənfi, həm də müsbət cəhətləri var. Mənfi cəhəti odur ki, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Rusiyanın dominant rolu qalır və tərəflər onun iradəsindən kənar hər hansı ciddi addım atmaq imkanından məhrumdur. Müsbət tərəfi isə odur ki, Rusiya Azərbaycanın müəyyən ərazi çərçivəsində də olsa, hərbi əməliyyatlarına göz yumubsa və bir növ, buna razılıq veribsə, deməli, Moskva Dağlıq Qarabağ münaqişəsinin həllinə meyllənir. Düşünürəm ki, Azərbaycanın lokal hərbi əməliyyatlar keçirməsinə böyük güclər tərəfindən etiraz edilməməsi və buna imkan verilməsinin əsas səbəblərindən biri Ermənistanı danışıqlarda konstruktiv mövqe tutmağa məcbur etmək olub. Çünki danışıqlar prosesində tərəflər arasında balans yox idi, Ermənistan şərt diktə etməyə çalışan, Azərbaycan isə böyük ərazi itkisi səbəbilə əlverişsiz durumda olan tərəf idi. Ermənistanı, necə deyərlər, yola gətirmək və yaxın gələcəkdə Serj Sərkisyanın danışıqlar prosesində edəcəyi güzəştlərə qarşı Ermənistan cəmiyyətində güclü etiraz dalğasının qalxmaması üçün Azərbaycanın güc nümayişi zərurətə çevrilmişdi. Artıq Sərkisyanın əlində əsas var ki, ölkə daxilində güzəştlərə etiraz edəcək qüvvələrə alternativ yolun güclü orduya malik Azərbaycanla ağır savaş, çoxlu insan itkisi, qan və gözyaşı olduğunu söyləsin. Mən bu məsələnin Azərbaycan-ABŞ-Rusiya üçbucağında müzakirə olunduğunu və razılaşdırıldığını düşünürəm. Yəqin ki, Moskvanın 22 ildən sonra münaqişənin həllinə meyllənməsində ABŞ-ın təzyiqləri, ümumən Qərb-Rusiya qarşıdurmasında Rusiyanın geriləməsi və zəifləməsi də mühüm rol oynayıb”.

### “Şəhidlər ölməz, vətən bölünməz!”

Atəşkəs razılaşması elan edilən ana qədər isə cəbhə xəttində döyüşlər davam edib və hər iki tərəfdən itkilər barədə informasiyalar yayılıb. Aprelin 4-də axşam saatlarında və aprelin 5-nə keçən gecə ərzində bütün cəbhə boyu vəziyyət gərgin olaraq qalıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, cəbhə xəttinin Xocavənd-Füzuli və Ağdərə-Tərtər istiqamətlərində itirilmiş mövqelərinin geri alınmasının heç bir nəticə vermədiyini anlayan Ermənistan tərəfi qoşunların təmas xəttinə yaxın yaşayış məntəqələrini atəşə tutub. Bu istiqamətdə düşmənin ən iri hərbi bazalarından biri sayılan, Ağdərə şəhərinə aparan əsas yol üzərində və onun şimalında yerləşən strateji baxımdan əhəmiyyətli Madagiz məntəqəsindəki hərbi bazanın qərargahı dəqiq zərbələrlə dağıdılıb.

Aprelin 4-də axşam saatlarında düşmənin müdafiə xəttində, mühəndis baxımdan hazırlanmış və dairəvi atəşə tutma üçün səngərlərdə yerləşən 3 ədəd döyüş tankı heyətlə birlikdə atəş gücü vasitəsilə məhv edilib. Ümumilikdə aprelin 4-ü gün ərzində və aprelin 5-i səhər saatlarınadək keçirilən əməliyyat tədbirləri və cavab atəş zərbələri nəticəsində ermənilər daha 70 nəfərədək canlı qüvvə sıradan itkiyə məruz qalıb, 20-dək hərbi texnikası tam sıradan çıxarılıb.

Bütün cəbhə boyu son iki gün ərzində düşmənlə döyüşlərdə igidlik və rəşadətlə vuruşan Silahlı Qüvvələrimizin hərbi qulluqçularından 16 nəfəri şəhid olub.

Dünən Azərbaycanın müxtəlif şəhər və rayonlarında son günlərdə döyüşlərdə şəhid olan qəhrəman hərbçilərinin dəfn mərasimləri də keçirilib. Şəhidlərin dəfn mərasimlərinə on minlərlə insan qatılıb. Hər bir şəhidin dəfn mərasimində izdiham və böyük ruh yüksəkliyi müşahidə olunub.

Dünən həmçinin bəlli olub ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri regiona gəlib.

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 72 (6393) 6 aprel 2016

**Aprelin 2-dən Qarabağ cəbhəsində başlanan döyüşlər Azərbaycanın bütün siyasi qüvvələrinin Qarabağ məsələsində, vətən müharibəsində yekdil mövqe ortaya qoymasını şərtləndirir. Bəs bütün siyasi qüvvələrin Qarabağ məsələsində yekdil mövqeyini nümayiş etdirmək üçün siyasi partiyaların Qarabağ sammitinə ehtiyac varmı?**

# Qarabağ sammiti keçirilə bilər

## Müxalifət partiyalarından yekdil mövqe...

**AXP sədri Pənah Hüseyn** bildirdi ki, Azərbaycanın bir çox siyasi partiyaları və ictimai qüvvələri Qarabağ qurultayı çağırılması ideyası ilə son aylarda çıxış ediblər. Bu ideya hələ də qüvvədə qalır, reallaşdırılsa, işin xeyrinə olar: “Bu məsələdə ölkənin, Azərbaycan cəmiyyətinin yekdil rəyinin nümayiş etdirilməsi üçün bu lazımdır. Bu məsələ gündəmdədir. Ola bilsin ki, vəziyyət aydınlaşandan sonra keçirilə bilər. Hazırda isə bütün diqqət cəbhədəki döyüşlərə yönəlməlidir. Əsas məsələ hazırda cəbhədə həll olunur”.

**Ümid Partiyasının sədri İqbal Ağazadə bildirdi ki, Qarabağ məsələsi ilə bağlı siyasi məsləhətləşmələr və ortaq mövqeyin ifadə olunması vacibdir:** “Hesab edirəm ki, Azərbaycan cəmiyyəti Qarabağ məsələsində yekdil mövqedə olduğunu son hadisələrdə ortaya qoya bildi. Hər halda, Azərbaycan ictimai-siyasi qüvvələrinin mövqeləri Qarabağ məsələsində üst-üstədir. Heç kim fərqli fikrə malik deyil, hamı dövlətin, Azərbaycan ordusunun yanındadır. Diqqət edirsinizsə, bu günədək heç bir siyasi təşkilat fərqli mövqe ortaya qoymayıb. Hər kəs Qarabağ məsələsində yekdildir. Hələlik daha ciddi proseslər başlamadığı üçün xüsusi böyük bir toplantı keçirilmir. Hər kəs mövqeyini ortaya qoyub, mənzərə aydındır. Əgər proses fərqli müstəviyə çıxarsa, təbii ki, böyük toplantı şəklində mövqe ifadə edilməsi də olacaq”.



**VİP sədri Əli Əliyev isə dedi ki, müasir dünyada müharibə kimi köklü problemlər tamamilə başqa müstəvidə aparılır. “Hibrid müharibə” adında yeni qaydalara söykənən taktiki üslub formalaşıb:** “Bizim də təbii ki, dünyanın gərdişinə uyğunlaşmamız lazımdır. Müharibə bütün sferalarda, o cümlədən hərbi, texniki, informativ, diplomatik, kosmik, yüksək texnologiyalar, ideoloji və digər seqmentlərdə aparılmalıdır. Toxunduğunuz sammit məsələsi ideoloji sferaya aid və cəmiyyətin təmərküzləşməsi üçün mühüm olan addım ola bilər. Mənə elə gəlir ki, bu istiqamətdə iqtidar təxirəsalınmaz işlər görməlidir. Ordunun əldə etdiyi uğurlar fonunda cəmiyyətdə yaranmış pozitiv impulsların inkişaf etdirilməsinə zərurət var. Toplumun konsolidasiyası əsgərin də ruhuna müsbət təsir göstərə bilər, motivasiyanı şəksiz ki, gücləndirər”.

**AMİP katibi Əli Orucov isə bildirdi ki, 2 apreldən indiyə qədər cəbhə xəttində baş verən hadisələrdən sonra bütün ölkənin bütövləşməsi, milli birliyə hazır olması reallığı ortadadır:** “Bunun özü nəinki siyasi partiyaların Qarabağ sammiti, hətta xalqın yekdil mövqe ortaya qoyduğu sammit hesab edilə bilər. Elə bir insan, elə bir qüvvə qalmadı ki, Azərbaycan ordusunun uğurunu təqdir etməsin. Bu birliyi, hər kəs, dost da, düşmən də gördü. Qarabağ və ərazi bütövlüyü məsələsində belə bir yekdillik və həmrəylik daha böyük qələbələr üçün bir vəsilə ola bilər. AMİP olaraq biz hər zaman bəyan etmişik ki, Ermənistan-Azərbaycan münaqişəsi məsələsində Milli Ordunun yanındayıq və bizim üçün iqtidar-müxalifət bölgüsü ortadan qalxır. Ordumuz üzərinə düşən missiyanı hər zaman ruh yüksəkliyi ilə yerinə yetirə bildiyini bir daha sübut etdi. İnformasiya müharibəsi elə bir geniş sferanı əhatə edir ki, burada təkcə siyasi partiyaların və KİV-lərin deyil, hər kəsin bir vətəndaş olaraq üzərinə böyük məsuliyyət düşür. Qarabağ mövzusu ilə bağlı müxalifət indiyədək yüzlərlə tədbir keçirib. Əgər belə bir sammit ümumi qələbəmizə gedən yola kiçik də olsa öz töhfəsini verəcəksə, biz bunu təqdirəlayiq hesab edərdik. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası üçün hər cür fəaliyyəti, atılan bütün addımları məqbul sayırıq”.

❑ **Etibar SEYİDAĞA**

# Vəkillikdən çıxarılan Müzəffər Baxışa həmkarlarından dəstək

**Vəkillər Kollegiyasından xaric edilən Müzəffər Baxış “Yeni Müsavat” qəzetinə verdiyi müsahibəsində qurumdan haqsız uzaqlaşdırılması ilə yanaşı, Azərbaycanda əksər vəkillərin ancaq maklerliklə çörək qazandığını deyib.**

Maraqlıdır, doğrudanmı, vəkillər öz çörəyini maklerliklə qazanır? Ümumiyyətlə, vəkillərin sərbəst fəaliyyət göstərməsinə mane olan səbəblər nədir?



**Aslan İsmayılov:** “Azərbaycanın əksər vəkillərinin birinci dərəcəli vəzifəsi ortada dəllallıq etməkdir”



**Nemət Kərimli:** “Ədalətli mühakimə olmadığı üçün müdafiə etdiyin şəxsin hüquqlarını qorumaq həddindən artıq çətindir”



**Elçin Sadıqov:** “Bu, məhkəmələrdəki korrupsiya halları ilə bağlıdır, güman edirik ki, bunun da qarşısı alınacaq”

**Vəkil Aslan İsmayılov** Azərbaycanda vəkillik institutunun məhv olduğunu dedi: “Mən on illərdir müsahibələrimdə deyirəm ki, Azərbaycan vəkillərinin birinci dərəcəli vəzifəsi ortada dəllallıq etməkdir. Ən çox qazanan da bu vəkillərdir. Artıq cəmiyyət elə öyrənib ki, hansısa işi savadı ilə qanun əsasında görən vəkilləri yaxınlarına buraxmırlar. Məsələn, mənim yanıma gələnlərin az qala yarısı dərhal sual verir ki, Aslan müəllim, siz hakimlərlə danışa bilərsinizmi? Mən də deyirəm ki, sizə bir şeyi söz verirəm ki, işə vicdanla yanaşacağam. Amma danışmaq mənlik deyil. Onların yarısı bu sözü eşidən kimi deyirlər, bağışlayın, Aslan müəllim, biz başqa vəkilin yanına gedəcəyik. Azərbaycan vəkillik institutunu tamamilə məhv ediblər. 3-5 il bundan əvvəl vəkillik yaxşı idi. Son illər, ümumiyyətlə, vəkilliyə vicdanla yanaşan, ədalətli, prinsipial olmaq istəyən, müştərinin mövqeyini müqəddəs sayan vəkilləri demək olar ki, hamısını vəkillikdən xaric ediblər. Xaric olmayanlar da basqı altındadır və daim ehtiyatla iş görürlər ki, sabah balaca bir şey olan kimi onları da qovacaqlar. Prosesdə ədalətli olan, hakimə, prokurora, müstəntiqə haqlı olaraq etirazını bildirən, onlarla dirəşən vəkillərdən aydın məsələdir ki, onların xoşu gəlmir. Onlar bir dəfə məktub yazan kimi həmin vəkilləri vəkillikdən xaric edirlər. Bu bir bələdir. Ona görə də bu gün Azərbaycanda vəkillik formaldır. Reallıqda vəkillik institutu yoxdur. Məni 2013-cü ildə Vəkillər Kollegiyasından çıxartdıqdan sonra bu prosesi davam etdirdilər. Məndən sonra tanıdığım 5-6 prinsipial vəkil var ki, onları da çıxartdılar. Ondan sonra mən yazdım ki, Azərbaycan vətəndaşı demək olar ki, müdafiəsizdir”.

**A.İsmayılov bu problemin həllinin cəmiyyətdən asılı olduğunu dedi:** “Vəkillik institutunun yenidən bərpası üçün ölkədə, cəmiyyətdə köklü dəyişiklik olmalıdır. Vəkillik siyasi-iqtisadi islahatlardan birbaşa asılıdır. Ölkədəki bütün sahələrdə köklü islahatlar getməyincə, heç nə düzəlməyəcək”.

**Vəkil Nemət Kərimli vəkillik sahəsində də rüşvətin olduğunu bildirdi:** “Azərbaycanda bütövlükdə istənilən dövlət orqanında korrupsiya və rüşvət baş alıb gedir. Bu, heç kimə sirr deyil. Təbii ki, vəkillik sahəsində də rüşvət var. Vəkillərin müəyyən bir hissəsi bundan istifadə edir. Mən konkret kimin makler fəaliyyəti ilə məşğul olduğunu deyə bilmərəm. Sadəcə olaraq, mühit, şərait elədir ki, Azərbaycanda kiminsə bundan bəhrələnməməsi qeyri-mümkündür”.

**N.Kərimli Azərbaycanda vəkillik sahəsinin çox çətin olduğunu dedi:** “Azərbaycanda ədalətli mühakimə sistemi tamamilə yoxa çıxıb. Ədalətli mühakimə olmadığı üçün müdafiə etdiyin şəxsin hüquqlarını qorumaq həddindən artıq çətindir. Təsəvvür edin ki, vəsatətlər verilir təmin edilməyə, hansısa qanunsuz, ədalətsiz qərarlar qəbul olunur. Vəkillər haqqında olan qanuna əsasən bütün idarə, müəssisə və təşkilatlar vəkillərin sorğusuna cavab verməlidir. Amma sorğu verirsən, sənə aylarla cavab vermirlər. Buna görə də nə etmək lazımdır bilmirsən. Bizim sahə həddindən artıq çətindir”.

**Vəkil Elçin Sadıqov bu cür neqativ halların qarşısının alınacağını güman edir:** “Bu sahədə poroblemlər həqiqətən mövcuddur və dövlət orqanları bizim sorğularımız vaxtında və müəyyən olunmuş qaydada cavab vermirlər. Xüsusilə də Daşınmaz Əmlakın Dövlət Reyesteri Xidməti, Miqrasiya Xidməti heç biri vəkillərin sorğularına cavab vermirlər. Vəkillik fəaliyyəti haqqındakı qanuna əsasən, bütün dövlət orqanları bizə vəzifələrimizi həyata keçirərkən yardım etməyə və bizim sorğularımıza cavab verməyə borcludur. Vəkillər barəsində hər hansı bir şikayət olan kimi, əsaslı və ya əsassız olduğuna baxmayaraq onları incidirlər. Vəkil vətəndaşla müqavilə bağlayır, sonradan Vəkillər Kollegiyasının yanaşması nəticəsində vəkillə müştəri arasında müəyyən problemlər də yarana bilir. Halbuki müştərinin tələbləri bir çox hallarda haqsız yerə olur. Vəkillərin maklerlik etməsi məsələsinə gəlincə isə düşünürəm ki, bunu bütün vəkillərə şamil etmək olmaz. Təbii ki, biz də hərdən eşidirik ki, belə hallar mövcuddur. Bu da məhkəmələrdəki korrupsiya halları ilə bağlıdır. Güman edirik ki, bunun da qarşısı alınacaq”.

**Vəkil Fariz Namazlı isə vicdanlı vəkillərin çoxluq təşkil etdiyini dedi:** “Vəkillərin sorğularına elə dövlət qurumları var ki, gec cavab verir, elə qurumlar da var ki, ümumiyyətlə cavab vermir. Qanunvericiliyə görə, vəkilin bütün sorğularına dövlət qurumları yardım etməlidir. Bu məsələdə vəkillərin işi çətindir. Vəkillərin maklerlik etməsi məsələsi mövcuddur. Amma praktikamda rastlaşmamışam ki, hansısa vəkil məhz bu məsələyə görə məsuliyyətə cəlb olunsun. Düşünürəm ki, vicdanlı vəkillərimiz daha çoxdur”.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 72 (6393) 6 aprel 2016

**Dünən axşam Badalyan soyadlı bir erməni jurnalist işlədiyi saytda müzəffər Azərbaycan ordusunu qaralamaq məqsədilə İŞİD-lə qiyaslamış, "Ermənistanın beynəlxalq terrorizmlə üz-üzə durduğunu" iddia etmişdi. Guya ki, Azərbaycan ordusu dinc əhaliyə ziyan vurur, mülki şəxslərə divan tutmağa çalışır.**

Xalid KAZIMLI



# Azərbaycan ordusu Qarabağ ermənilərini də terrordan xilas edəcək!

## "Məqsəd Qarabağ ermənilərini 28 ildən bəri girov götürən, kölə kimi işlədən, zaman-zaman aşağılayan ermənistanlı hərbçilərin Qarabağdakı hakimiyyətinə son qoymaq, onları Dağlıq Qarabağdan qovmaq, Xankəndini və ətrafdakı yaşayış məntəqələrini buranın yerli sakinlərinə - ermənilərə və azərbaycanlılara qaytarmaqdır"

Bu, əlbəttə ki, ermənilərin son günlərdə məruz qaldıqları hərbi məğlubiyyətin acısını sinirə bilməməkdən doğan qənaətlərdir.

Əslində çoxdan bəllidir ki, məhz Ermənistan dövləti 1988-ci ildən başlayaraq təkcə cəbhə bölgələrində yox, eləcə də Bakıda, Gəncədə *(metroda, avtobusda, qatarda)* dəfələrlə sırf mülki şəxslərə yönəlmiş terror aktları həyata keçirib, minlərlə əliyalın insanı, müqavimət göstərmək imkanı olmayan dinc şəxsləri qətlə yetirib. Bu iddialara cavab olaraq bircə kəlmə kifayətdir: "Xocalı..."

Düzdür, müharibədə dinc sakinlərin, mülki şəxslərin həlak olması, yaralanması faktları qaçılmazdır, ancaq bir var, onlar tək-tək çovuyan güllənin, yaxud koordinatı düzgün müəyyən edilməmiş mərminin qəlpələrinin qurbanı olsunlar, bir də var, mülki şəxsləri əsir götürüb sıraya düzməklə güllələyələr, aman dilədikləri vaxt kütləvi şəkildə güllələbaran edələr.

Birinci Qarabağ müharibəsində ermənilər bu kimi hərbi cinayətlərə çox yol veriblər. Bu xüsusda yüzlərlə fakt, şahid ifadələri var. Ona görə də ermənilərdə səksəkə, qorxu var ki, Azərbaycan ordusu da eyni üsullarla onlardan qisas alacaq.

Azərbaycan ordusunun son davranışlarından görünür ki, belə olmayacaq. Hər şey dəqiqliyinə qədər ölçülüb-biçilib. Ordumuz elə bir müharibə aparmağı planlaşdırıb və həyata keçirir ki, mülki əhali, yəni Azərbaycanın erməni millətindən olan vətəndaşları zərər görməsin.

Məqsəd Qarabağ ermənilərini 28 ildən bəri girov götürən, kölə kimi işlədən, zaman-zaman aşağılayan ermənistanlı hərbçilərin Qarabağdakı hakimiyyətinə son qoymaq, onları Dağlıq Qarabağdan qovmaq, Xankəndini və ətrafdakı yaşayış məntəqələrini buranın yerli sakinlərinə - ermənilərə və azərbaycanlılara qaytarmaqdır.

Arada çox qan tökülüb, millətlərarası barışıq çətin olacaq, amma mümkündür. Bu, bəlli faktdır ki, Qarabağ ermənilərinin xeylisi heç də Azərbaycana qarşı döyüşməyib, hərbi cinayətə qarışmayıblar. Qarabağ müharibəsinin əsas hücumçu və qəddar qüvvəsi həmişə Ermənistandan gələnlər olub və hələ də onlardır. Döyüşlərdə ölənlərin siyahısına, doğulduqları məkanlara diqqət yetirmək kifayətdir ki, bunun həqiqət olduğu ortaya çıxsın.

Bu baxımdan əslində indiyədək özlərini İŞİD briqadası kimi aparan ermənistanlı hərbçilərin Qarabağdakı ağalığına son qoyulsa, bölgəyə sülh və sabitlik gələcək.

Heç bir halda ermənilərin kütləvi şəkildə Qarabağdan deportasiya edilməsi söhbəti ola bilməz. Azərbaycan hakimiyyəti də, müxalifəti də anlayır ki, deportasiya hərbi cinayətdir, bunu edənlər genosid cinayəti törətmiş sayılırlar. Deportasiyanı qadağan edən müvafiq beynəlxalq konvensiyalar var.

Həmin konvensiyaların tələbləri vaxtilə azərbaycanlıları İrəvandan, Göyçədən, Zəngəzurdan deportasiya edən, daha sonra Qarabağın dağlıq və aran hissəsindəki azərbaycanlıları qovan ermənilərə tətbiq edilmədi, amma Azərbaycan tərəfi bilir ki, bu, bir cinayətdir və beynəlxalq birlik bu məsələdə həssasdır.

Ona görə də bəzən sosial şəbəkələrdə son hərbi eskalasiyanın emosiyasına qapılaraq "erməniləri Qarabağdan tamamilə kürüyüb atmaq lazımdır" deyənlərin fikrini ciddiyə almaq, əsas götürmək mümkün deyil.

Yəqin ki, II Qarabağ müharibəsi uğurla başa çatsa (inşallah elə də olacaq), Azərbaycan dövləti öz erməni vətəndaşlarının bütün hüquqlarını təmin edəcək, o cümlədən onlara təhlükəsizlik təminatı verəcək. Dağlıq Qarabağa yenidən muxtar vilayət statusu verilməsi məsələsi də müsbət həll olunacaq.

Bölgədə böyük sülh əldə olunduqdan sonra yaraların sarınması, Dağlıq Qarabağın çiçəklənməsi çox da vaxt aparmayacaq. Bu vilayət son 28 ildə görmədiyi inkişafa, tərəqqiyə cəmi bir-iki ilin içində nail olacaq.

Bundan ötrü bu gün Qarabağ erməniləri daha ayıq-sayıq və ağıllı olmalıdırlar, hərbi cinayətlərdə iştirak etməməlidirlər, imkanları çatdığı qədər Azərbaycan dövlətinə və orduya sığınmalıdırlar.


Ermənilər Şuşada

**"Bu, bəlli faktdır ki, Qarabağ ermənilərinin xeylisi heç də Azərbaycana qarşı döyüşməyib, hərbi cinayətə qarışmayıblar. Qarabağ müharibəsinin əsas hücumçu və qəddar qüvvəsi həmişə Ermənistandan gələnlər olub və hələ də onlardır. Döyüşlərdə ölənlərin siyahısına, doğulduqları məkanlara diqqət yetirmək kifayətdir ki, bunun həqiqət olduğu ortaya çıxsın"**

Azərbaycan hərbi birləşmələri də Ermənistan terrorçularından azad olunmuş yaşayış məntəqələrində qalan yerli əhaliylə qanunlar çərçivəsində, əsirlikdən xilas olunmuş vətəndaşlarımız kimi davranmalıdır.

Bu işlərin qaydası budur. Milli ayrı-seçkiliyə, sıxışdırmaya, təqibə yol vermək olmaz. Köhnə əyyamlardakı dostluq büsatları təbii ki, beş ilə, on ilə qurula bilməyəcək. Lakin istənilən halda, Azərbaycan vətəndaşı olan ermənilər təminat və hüzur içində yaşayacaqlar.

Avropada yüz illərlə bir-biri ilə müharibə aparan millətlər olub, amma indi hamısı bir ittifaqda yaşayır, vahid valyuta işlədirlər. Qafqaz da Avropaya daxildir və burada yaşayan xalqlar avropalılar kimi olmağa məhkumdur.

# Əgər Səfər Əbiyev nazir olsaydı...

## Hazırda cəmiyyətdə müzakirə olunan əsas suallardan biri budur; son döyüşlər Zakir Həsənovun nazirlik dönəmi barədə müsbət fikirlər söyləməyə dəlalət edir...

## **Üzeyir Cəfərov:** "Onu daha çox kabinet generalı kimi tanıyırdıq"





**Aprelin 2-dən başlayaraq cəbhədə davam edən hərbi əməliyyatlar Azərbaycan ordusunun bir daha gücünü ortaya qoydu. İndiyə qədər gedən döyüşlərdə ermənilər atəşkəs dövrünün ən ağır zərbəsini aldılar. Düşmən darmadağın edildi.**

Son günlərdə gedən proseslər 2013-cü ilin oktyabrından müdafiə naziri vəzifəsini icra edən Zakir Həsənovun son illərdəki fəaliyyəti nəticəsində ordumuzun döyüş qabiliyyətinin artdığını, nizam-intizamının bərpa olunduğunu əyani sübut etdi. Həsənovdan öncə 8 il müdafiə naziri işləyən Səfər Əbiyevin zamanında ordumuzun indiki qədər peşəkar, güclü olduğunun şahidi olmamışdıq. Hətta zaman-zaman Azərbaycan ordusu barədə mənfi fikirlər səslənirdi. Amma Z.Həsənov nazir təyin olunandan sonra ordumuz barədə olan bütün mənfi fikirlərin üzərindən xətt çəkildi. Hazırda Zakir Həsənovun fonunda Əbiyev nazir olsaydı, bu qədər uğurlar qazanıb-qazanmayacağımız cəmiyyət arasında yaranan əsas suallardan biridir.

**Hərbi ekspert Üzeyir Cəfərov ordunun hazırlığının döyüşlərdə əsas amil olduğu qənaətindədir:** "Belə proseslərdə fərdlər də mühüm rol oynayır. Amma düşüncəmə görə, ordunun hazırlığından çox şey asılıdır. Ordu hazırdırsa, onun başında duran istənilən şəxs istədiyi qərarı verə bilər. Yeni müdafiə naziri gələndən sonra çox şeylər dəyişib. Bu bir faktdır. Problemlər müsbətə doğru dəyişib. Prinsip etibarı ilə belə də olmalıdır. Vəzifəyə yeni təyin olunan şəxs etimadı doğrultmaq üçün özü ilə yeniliklər gətirir. Səfər Əbiyevin dönəmində vəziyyət fərqli idi. Zakir Həsənovun hazırkı fəaliyyətində müsbətə doğru dəyişikliklər var. Amma döyüşlərdə fərdlərin üzərində dayanmaq istəməzdim. Əsas məsələni Azərbaycanın döyüşən əsgər və zabitləri edirlər. Düzdür, qərarı nazir və Baş Qərargah verir. Qərar da Azərbaycan əsgəri tərəfindən icra olunur. Qiyməti əsgərlərimizə vermək lazımdır. Diqqəti bu istiqamətə yönəltsək daha yaxşı olar. Yəqin ki, hörmətli generallar və digər yüksək rütbəli şəxslər sözlərimdən inciməzlər. Çünki onların tapşırıqlarını əsgərlər icra edirlər. Bütövlükdə götürəndə Zakir Həsənovun nazir gəlməsindən sonra müsbətə doğru ciddi dəyişikliklər var. Görüləsi işlər də çoxdur. Qələbələrimiz inanıram ki, davam edəcək. Ondan sonra da görüləcək işlər həyata keçəcək".

**Hərbi ekspert ordunun mürəkkəb qurum olduğunu da qeyd etdi:** "Vəzifəyə yeni gələn şəxs nailiyyətləri genişləndirir. Hazırda orduda müsbətə doğru gedən proseslər hər birimizi sevindirir. Belə də olmalıdır. Çünki silahlı qüvvələrimiz bundan da güclü olmalıdır. Səfər Əbiyev dönəmində tamam başqa aura var idi. Onu daha çox kabinet generalı kimi tanıyırdıq. Daim kimlərləsə görüşürdü. Amma Həsənovun dönəmində tamam fərqli halların şahidi oluruq. O, daha çox cəbhə xətlərində olur. Hərbçilərin ümumi vəziyyətləri ilə maraqlanır. Bunlar çox önəmli məqamlardır. Bir faktı da qeyd edim. Allah eləməsin, sabah Zakir Həsənov yuxarı vəzifəyə təyin olunsa, yaxud başqa səbəblərlə vəzifədən getsə, ordumuzun fəaliyyəti dayanacaq? Bu nöqteyi-nəzərdən ordumuz hər şeyə hazır olmalıdır. Elə bir işlək mexanizm olmalıdır ki, heç vaxt problemlərlə üzləşməsin. Orduya daim yüksək əhval-ruhiyyə aşılanmalıdır. Bu işdə Zakir Həsənova ciddi dəstək olmalıdır. Hərbi rəhbərlərimizin ortaya böyük nəticə qoyacaqlarına inamımız tamdır. Son günlərdəki döyüşlər məni qane edir. Hələ genişmiqyaslı əməliyyatlar başlamayıb. Əsgər və zabitlərimiz hazırda yalnız düşməni tutduğu mövqelərdən geri çəkilməyə məcbur edirlər. Əgər ordumuz hücum əməliyyatlarına başlasa, tamam fərqli mənzərə yaranacaq. Düşmən başa düşməlidir ki, işğal etdiyi əraziləri boşaltmağa məcburdur. Çünki Azərbaycan heç vaxt həmin əraziləri güzəştə getməyəcək".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 72 (6393) 6 aprel 2016



# Kukla Teatrı

Zamin HACI
zaminhaci@gmail.com

**Şanlı ordumuzun son günlərdə döyüş əməliyyatlarına başlayıb torpaqlarımızı azad etməsi hər bir Azərbaycan vətəndaşı kimi, bizim də qəlbimizi qürurla döyündürdü. Ancaq şəxsən mən ən çox Azərbaycan Dövlət Kukla Teatrında keçirilən ordumuza dəstək tədbirindən mütəəssir oldum. Teatrın direktoru Rəşad Əhmədzadə aprelin 5-də buradakı geniş iclasda çıxışında bildirdi ki, hər zaman Ali Baş Komandanın əmrini gözləyirlər. Deyir, Kukla Teatrı cəbhə xəttinə gedib əsgərlərimiz qarşısında çıxış etməyə də hazırdır. Ümidvaram atəşkəs yaranana qədər Rəşad müəllimin rəhbərlik etdiyi kollektiv əsgərlərimiz qarşısında çıxış etməyi bacarmışdır.**

Deyə bilərsiniz Kukla Teatrının cəbhə xəttinə nə dəxli var? Axmaq sualdır. Vətən dardadırsa, hər bir kəs köməyini göstərməlidir. Olmuş əhvalatdır, deyir bir gün ot tayası yanırmış, baxırlar sərçə dimdiyində su daşıyır. Camaat sərçəyə lağ edir, ancaq sərçə deyir ki, əsas odur mən yanğını söndürməyə çalışıram, daha qıraqda dayanıb sizin kimi dişlərimi ağartmıram. Yeri gəlmişkən, Kukla Teatrı erməni ordusunun kuklalarını düzəldib əsgərlərimiz qarşısında sındıra, yandıra bilər, bununla vətənpərvərlik və döyüş ruhu yüksələr. Sözümün canı odur ki, istəsən hər kəsə iş tapılar. Bəsləsən atlas olar tut yarpağından.

Bu baxımdan Azərbaycan Yazıçılar Birliyinin Qarabağ filialının Ağcabədi rayon şöbəsinin poeziya üzrə müdiri, korifey sənətkarımız, xalq şairi Ənvər Əhmədin moderator.az verdiyi intervü olduqca təqdirəlayiqdir. Şair deyir ziyalıları başına yığıb vuruşmağa hazırdır. Hətta gecə yatmayıb, bu münasibətlə bir şeir də yaratmışdır:

**"Ali Baş Komandanım, sənin hökmün qətidir,**
**Tökdüyümüz qızıl qan, bəli, müvəqqətidir".**

Məncə, bu şeir AYB sədri Anara, döyüşün qızğın vaxtında səsini çıxarmayan gənc şairələr üzrə komitə sədri Rəşad Məcidə dərs olmalıdır. Bəs siz niyə yazmırsınız? Nə üçün əsgərlərimizə bir papiros işığı boyda poetik ruh vermirsiniz, cəhənnəm, bir papiros alıb vermirsiniz? Hərçənd, Ənvər müəllimin də əsərində bir qədər nala-mıxa vurmaq, hətta deyərdim ki, iraq olsun, təslimçi sülh sazişinə yönəlik sətiraltı təbliğat motivləri hiss olunmaqdadır. Necə yəni tökdüyümüz qan müvəqqətidir? Belə müqəddəs işlər müvəqqəti ola bilməz, daimidir, əbədidir, dönməzdir. Torpaqları torpaq yapan üstündəki qandır. Di gəl, bunu torpağın sotunu 10 minə satan Hacıbala müəllimə bəzən izah etmək çox çətin olur.

Bəyəm Anar müəllim öz əsərlərini döyüşən ordumuza həsr edə bilməz? Qoy zəhmət çəksin, "Beşmərtəbəli postun altıncı mərtəbəsindəki Sərkisyan" adlı pyes yazsın. Orda Zaurun Sarkisyanı atmasını, bundan sonra alçaq erməninin konyaka qurşanıb zəlil günə düşməsini təsvir etmək çox yaxşı olardı. Yoxsa neftin yağlı vaxtlarında yeyib-için Yesentukidə-zadda gəzməyə nə var? O vaxt da yazıq Səməd Vurğun cəbhədə can qoydu, bəzilərinin ataları isə arxa cəbhədə sərbəst yaşayıb sərbəst şeir yazdılar. Nəsə, ağır söhbətdir, ümid edirəm bunu Cəmil Həsənlinin Anar müəllimin kitabına yazdığı növbəti ön sözdə oxuyarıq.

Deputatlarımız da qeyri-vətənpərvər davrandılar. Biri deyib ki, maaşımızın bir hissəsini orduya yardım edək. Niyə hamısını vermirik? Bəyəm əsgərlərimiz vətən uğrunda döyüşə atılanda "canımın bir hissəsi vətənə qurban" deyirlər? Ayıb olsun belə deputatlara.

O cümlədən Mərkəzi Bankın sədri, əslən işğal edilən Cəbrayıl rayonundan olan Elman müəllimi və nəqliyyat naziri Ziya Məmmədovu da qınayıram. Elman müəllim ordumuzun Cəbrayıl istiqamətində aldığı təpənin şərəfinə manatı möhkəmləndirə bilməzdimi? Ziya müəllim isə gərək əlində qalan səlahiyyətlərin o birilərini də orduya yardım fonduna keçirəydi.

İndi söz, bəli, əlaqədar orqanlarındır.



# Rusiya diplomatiyasının "ağır topu" sabah Bakıda olacaq - əsas gözləntilər

**Sabah Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Bakı səfəri başlayır. Rəsmi məlumatlara görə, səfər ilk növbədə Rusiya-Azərbaycan əlaqələrinin mövcud durumunun müzakirəsinə, siyasi və iqtisadi məsələlərin razılaşdırılmasına həsr olunacaq, həmçinin terrorizmlə mübarizə, Xəzər dənizində özünü göstərən problemli məsələlər və iki ölkə arasında hərbi-texniki əməkdaşlıq məsələləri danışıqlarda əsas mövzulardan olacaq.**

## Sergey Lavrovun səfəri olduqca ziddiyyətli və mürəkkəb bir dönəmə təsadüf edir; rusiyalı nazirin Bakıdan İrəvana getməyi planlaşdırmaması Dağlıq Qarabağ məsələsində Azərbaycan üçün unikal təbliğati üstünlük yaradır, çünki...

Səfər Azərbaycan-Rusiya-İran XİN başçılarının üçtərəfli formatı çərçivəsində gözlənilsə də, aydındır ki, daha çox Bakı-Moskva, Moskva-Ankara münasibətləri kontekstində diqqət mərkəzində olacaq. Ziyarət ərəfəsində Qarabağ münaqişəsi zonasında vəziyyətin kəskinləşməsi isə qarşıdakı görüşlər və onların nəticələrinə ikiqat siyasi dəyər verir.

Qarabağ mövzusu gündəmdə yəqin ki, məxsusi yer tutacaq. Çünki həll olunmamış Qarabağ ixtilafı təkcə Azərbaycan və Ermənistan üçün deyil, münaqişəyə cəlb olunmuş Rusiya, Türkiyə və İranın da yerləşdiyi böyük bir coğrafiyada olduqca böyük təhlükə olaraq qalır. Sergey Lavrovun Azərbaycanın rəhbər şəxsləri ilə təmasda bu mövzunun diqqət mərkəzində olacağı şəksizdir. Səfər ərəfəsində Lavrovun ABŞ dövlət katibi Con Kerri ilə bu mövzuda müzakirələr aparması qənaətimizi gücləndirir.

***

Rusiyalı naziri sözsüz ki, prezident İlham Əliyev də qəbul edəcək. Ötən saylarımızın birində yazdığımız kimi, bəzi ehtimallara görə, bu görüşdə Lavrov Rusiya prezident Putinin İlham Əliyevə müəyyən mesaj və xahişlərini çatdıracaq. Nədən ibarət ola bilər bu mesajlar - ələlxüsus da son gəlişmələr fonunda?

İlk növbədə Putinin boykot elədiyi Nüvə Sammiti çərçivəsində onun azərbaycanlı həmkarı İlham Əliyevin keçirdiyi uğurlu Vaşinqton görüşlərinin nəticələri rəsmi Moskvanı maraqlandıra bilər. Çünki Kreml Bakı-ABŞ yaxınlaşmasına həmişə qıcıqlı və qısqanc yanaşıb.

İkinci mühüm mesajın Qarabağla ilgili ola biləcəyi istisna deyil. Yeni hərbi əməliyyatlar fonunda bu mesaj artıq daha böyük önəm daşıyır. Ehtimal ki, Lavrov hazırkı gərgin durumda Moskvanın Qarabağla bağlı nə düşündüyünü, hansı məramları güddüyünü diqqətə çatdıracaq.

Rusiyanın Qarabağ ixtilafından gözləntiləri isə çoxdan bəllidir: Dağlıq Qarabağ məsələsində ona baş arbitr rolunun tanınması, münaqişə zonasına özünün hərbi qüvvələrini yeritmək və Azərbaycanı Avrasiya layihələrinə qoşmaq. Hər üç məsələdə təbii ki, Bakının razılığına ehtiyac var. Lakin Azərbaycanın da şərtləri var - öncə işğal altındakı ərazilər, heç olmasa, 5 rayon geri qaytarılmalıdır.

Bəs Lavrov hansısa təklif gətirəckmi? Rusiyanın yeni-köhnə şərtləri nə olacaq? Hər halda, rusiyalı nazirin azından növbəti Əliyev-Sərkisyan görüşünün təşkili ilə bağlı təklif çatdırılacağı istisna olunmur.

***

Diqqətçəkən detallardan biri də Bakı görüşündən iki gün öncə Tehranda İran, Azərbaycan və Türkiyə xarici işlər nazirlərinin "üçlü götrüşü"nün keçirilməsidir. Xəbər verildiyi kimi, dünənki Tehran təmaslarında Qarabağ mövzusu da diqqətdə olub. Bu mənada Bakı görüşlərinin yekununa Tehrandakı üçlü təmasın da müəyyən təsiri olacaq.

Söhbət öncəliklə Ankara-Moskva münasibətlərinin xüsusən də təhlükəli inkişaf alan Qarabağ problemi fonunda normallaşması və bu normallaşmaya Azərbaycanın mümkün töhfəsindən *(vasitəçilikdən)* gedir. Putinin Bakıya bir xahiş-çatdırışı da elə vasitəçiliklə əlaqədar ola bilər. Hər necə olmasa, Azərbaycanın qardaş ölkəyə təsir imkanları özəl və böyükdür.

Azərbaycan üçün indi Rusiya-Türkiyə münasibətlərinin normallaşması Qarabağ münaqişənin ədalətli çözümü və konfliktə Rusiya faktorunun təsirini azaltmaq baxımından xüsusilə böyük önəm daşıyır. Çünki müharibə iki regional supergücün toqquşmasına gətirə bilər. Rusiya-Türkiyə münasibətlərində isə axır vaxtlar hər iki tərəfdən bir stabil ılıqlaşma meyli duyulmaqdadır. Lavrovun Bakı görüşlərinə həm də bu aspektlərdən yanaşmaq lazım gəlir.

Nəhayət, rusiyalı nazirin hərbi əməliyyatlar fonunda Bakıdan İrəvana getməyi planlaşdırmaması Qarabağ məsələsində Azərbaycan üçün unikal təbliğati üstünlük yarada bilər. Hər halda, mövcud qəliz durumda Bakının da nə istədiyi Rusiya tərəfinə dəqiqliklə bəlli olacaq, erməni tərəfdə istər-istəməz diskomfort və şübhələr yaradacaq, o sırada Bakı-Moskva münasibətlərinin ermənilərin istəyinin əksinə olaraq, normal məcrada olması rəyini onlarda möhkəmlədəcək.

❑ Siyasət şöbəsi

## Putinin rəsmi nümayəndəsi: "Azərbaycanın mövqeyi ədalətlidir"



**"Vəziyyətin düzəldilməsini tələb edən Azərbaycanın Dağlıq Qarabağ münaqişəsində mövqeyi məntiqlidir və ədalətlidir. Üstəlik, bununla bağı BMT-nin qətnamələri var".**

Bunu "Trend"ə Rusiya prezidentinin səlahiyyətli nümayəndəsi, RF-nin İctimai Palatasının üzvü, politoloq Sergey Markov deyib. Onun fikrincə, Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində indiki toqquşmalar Minsk Qrupunu hərəkətə keçməyə və danışıqlar prosesinin donunu açmağa məcbur edəcək.

Bir çox Rusiya KİV-ində Azərbaycan əleyhinə qeyri-obyektiv mövqe sərgilənməsinə münasibət bildirən S.Markov bildirib: "Bu dəfə Rusiya informasiya məkanında həm erməniyönümlü, həm də azərbaycanyönümlü, eləcə də neytral mövqe və şərhlər təqdim edilməsinə baxmayaraq, Azərbaycanın mövqeyi sonadək göstərilməyib. Hərçənd daha əvvəllər erməniyönümlü məlumatlar dominantlıq etsə də, hazırda bu baş vermir".

## Dağıstandakı Rusiya ordu birləşmələri hərbi təlimlərə başladı

**Rusiya Cənub hərbi dairəsinin Dağıstanda yerləşən motoatıcı briqadasının bölmələri həyəcan siqnalı ilə qaldırılıb.**

Dairənin mətbuat xidmətindən verilən məlumata görə, hissələr taktiki təlimlərin keçiriləcəyi Dalni poliqonuna istiqamətləniblər. Təlimlərə 1000 nəfərə yaxın hərbçi və 300 vahid texnika cəlb olunub.

Virtualaz.org bildirir ki, bu xəbəri Rusiyanın "Zvezda" telekanalı verib.

Təlimlərdə hərbçilər "Qrad", "Qvozdika" sistemlərindən və T-90A tanklarından hərbi atəş həyata keçirəcəklər. Təlimlər aprelin 9-na kimi davam edəcək.

YENİ MÜSAVAT
N 72 (6393) 6 aprel 2016

# Parlamentdən Minsk Qrupuna ittihamlar

## Milli Məclisdə Qarabağ müzakirələri - deputatlardan düşmənə sərt xəbərdarlıqlar



**Milli Məclisin 5 aprel iclasının gündəliyində 21 məsələ olsa da, deputatların əksəriyyəti Qarabağda baş verənlərdən bəhs etdilər, Azərbaycan ordusunun düşmənə qəhrəmancasına müqavimət göstərib uğurlar əldə etməsini alqışladılar.**

Plenar iclas Qarabağda şəhid olanların xatirəsinin yad edilməsi ilə başladı. **Spiker Oqtay Əsədov** cəbhədəki vəziyyətlə bağlı mövqeyini bölüşdü. O dedi ki, Azərbaycan atəşkəs rejiminə daim əməl etsə də, qarşı tərəf aqressiv mövqe tutub: “Son vaxtlar isə mülki vətəndaşlarımız hətta mərmilərdən atəşə tutulmağa başladı. Aprelin 1-dən 2-sinə keçən gecə Azərbaycan ordusu uğurlu əməliyyat keçirərək bir sıra mühüm yüksəkliklər ələ keçirdi. O yüksəkliklər ki, Azərbaycan əhalisinə problem yaradılırdı, artıq o yüksəkliklər Azərbaycan ordusu tərəfindən alındı. Gərginlik bu günə qədər davam edir”.

**O.Əsədov bildirdi ki, sonrakı gün Azərbaycan atəşkəs elan etsə də, Ermənistan buna razılaşmadı:** “Ona görə də Ermənistan ordusu Dağlıq Qarabağdan çıxarılandan sonra biz hansısa danışıqlara gedə bilərik. Dağlıq Qarabağda vuruşan Ermənistan ordusudur. Biz status-kvonun qalmasına razı deyilik. Minsk Qrupu toplanır, amma ona inam yoxdur”.

**O.Əsədov Azərbaycan ordusuna uğurlu əməliyyata görə təşəkkür etdi. Bildirdi ki, dünya artıq Azərbaycanın mövqeyini qəbul edir:** “İnanmaq istəyirik ki, artıq beynəlxalq təşkilatlar həqiqətin mövqeyində dayanacaqlar”.

**Deputat Qüdrət Həsənquliyev son uğurlu əməliyyatlar nəticəsində Ermənistanda vahimə yarandığını dedi və bu məqamdan sonadək istifadə etməyə çağırdı:** “Təklif edirəm ki, biz Ermənistan xalqına və dünya ictimaiyyətinə müraciət edək ki, biz gənclərin ölümünü istəmirik. Onlar başqa dövlətlərin əlində alətə çevrilmiş Sərkisyan rejimindən xilas olmalıdırlar”. Deputat öz əmək haqqının bir hissəsini Silahlı Qüvvələrə Yardım Fonduna keçirəcəyini bildirdi və həmkarlarını da bu təşəbbüsə qoşulmağa çağırdı.

O.Əsədov dedi ki, Ali Baş Komandan “erməni ölmək istəmirsə, bizim torpaqlardan çıxsın” deyib və odur ki, əlavə müraciətə ehtiyac yoxdur.

**Deputat Fəzail İbrahimli** isə Türkiyə başda olmaqla, Azərbaycana dəstək verən dost dövlətlərə təşəkkür etdi.

**Deputat Qənirə Paşayeva Azərbaycan xalqını və ordusunu qələbə münasibətilə təbrik etdi:** “Azərbaycan daim bəyan edirdi ki, bu işğalla heç vaxt razılaşa bilməz. Amma çox təəssüf ki, Ermənistana qarşı heç bir gərəkən addımlar atılmırdı. Bu gün dünya gördü ki, bütün Azərbaycan xalqı Ali Baş Komandanın və ordumuzun yanındadır”. Q.Paşayeva cəbhə zonasında yaşayan əhaliyə güzəştlər edilməsi təklifini verdi.

**Zahid Oruc çıxışında bildirdi ki, 2 apreldən sonra Azərbaycanın həyatında Qarabağla bağlı yeni bir mərhələ başlayıb:** “Ona görə də biz qələbələrə görə Azərbaycan ordusunu təbrik etməliyik. Bu gün Azərbaycan ordusu vahiddir, xalq Ali Baş Komandanın yanındadır. Bu gün Ermənistanda ölən əsgərlərə görə günahkar Sərkisyandır. Azərbaycan əsgərinin hərbi əməliyyatları sübut etdi ki, Qarabağda erməni əhalisi yaşamayıb, sadəcə, 30 minlik erməni silahlı birləşmələri yerləşdirilib. Ermənistan təzədən bu prosesi Rusiyanın nəzarəti altına salmaq istəyir. Ancaq orada savaşan nə ABŞ, nə Rusiya, nə Türkiyədir. Qarabağda savaşan Azərbaycan ordusudur. Ordumuzun qələbəsini Azərbaycan vətəndaşı, siyasətçisi, diplomatı müdafiə etməyi bacarmalıdır”.

**Spiker Oqtay Əsədov əlavə etdi ki, ermənilər ağır duruma düşüb:** “Artıq Ağdərədən Şuşaya kimi bütün ermənilər qaçıb. Əsas məsələ budur. Bu, xalqımızın ordumuza inamının nəticəsidir”.

**“Sonuncu Ermənistan əsgəri Azərbaycan ərazisini tərk etdikdə biz öz məqsədlərimizə çatdığımızı deyə bilərik”**

**Vitse-spiker Bahar Muradova şəhidlərə rəhmət dilədi. Dedi ki, bir gün əvvəl özü Füzulidə olub:** “Müşahidə etdiyim, qürur duyduğum bir məqam var ki, budəfəki vəziyyət 90-cı illərdən fərqlidir. Sonuncu Ermənistan əsgəri Azərbaycan ərazisini tərk etdikdə biz öz məqsədlərimizə çatdığımızı deyə bilərik”.

**B.Muradova dedi ki, döyüş əməliyyatları, onların nəticələri ilə bağlı dəqiq mənbəyə istinad etmədən məlumat yaymaq olmaz:** “Ən əsası, sosial şəbəkələrdəki paylaşımlara diqqət yetirmək lazımdır. Bu, oradakı insanları çox narahat edir. Vaxtından əvvəl hansısa informasiyanın yayılması həm ordumuzu, həm də rəsmi qurumları narahat edir”.

**B.Muradovanın sözlərinə görə, ATƏT PA-dakı Azərbaycan nümayəndə heyəti qurumun ədalətli mövqeyini elan etməsini gözləyir və bu məqsədlə müraciət edib:** “Son erməni əsgəri Azərbaycan ərazisindən çıxmayana qədər hansısa danışıqlardan, atəşkəsə gedilməsindən söhbət gedə bilməz. Bu, təmas xəttində yaşayan əhalinin bizdən istəyidir. İstəyimiz odur ki, beynəlxalq qurumlar öz vəzifələrini yerinə yetirsinlər. Qoy analarımız ağlamasın, Azərbaycan torpağının hər qarışında tökülən qanlar yerdə qalmasın!”

**Deputat Siyavuş Novruzov da çıxışa xalqımızı təbriklə başladı. O bildirdi ki, bütün Azərbaycan xalqı prezidentin və ordunun ətrafında birləşdi:** “İkinci tərəfdən, beynəlxalq təşkilatlar başa düşdü ki, dondurulmuş münaqişə sülh deyil. Uzun illər ATƏT-in Minsk Qrupunun yarıtmaz fəaliyyəti nəticəsində məsələnin həllində irəliləyiş nail olunmadı”.

**S.Novruzov dedi ki, Ermənistan KTMT ilə erməni əhalini sakitləşdirməyə çalışırdı:** “Amma bu təşkilat bəyan etdi ki, müharibə Azərbaycan ərazisində getdiyi üçün ona qarışa bilmərik. Beləliklə, bu mif də dağıldı”.

YAP-çı deputat dedi ki, prezidentin əmri ilə o özü də bir əsgər kimi cəbhəyə getməyə hazırdır.

**O.Əsədov bildirdi ki, ermənilər yalan xəbərlərlə dünyanı çaşdırmağa çalışır:** “Onların bütün cavabları qaçıb. Hələ təmas xəttində savaş gedir, Şuşa şəhəri boşalır. Döyüşə 50 yaşdan yuxarı qocaları, 90-cı illərin saqqallılarını göndərirlər. Dediyim kimi, ermənilərin mülki əhalimizi mərmi atəşinə tutmasına cavab olaraq, ordumuz üç yüksəkliyi azad etdi. Bununla da ətraf ərazilərdə yaşayan dinc sakinlərin təhlükəsizliyi təmin olundu. Ancaq ermənilər dayanmır, yenidən həmin yüksəklikləri geri qaytarmaq istəyir. Hətta Sərkisyan deyir ki, Azərbaycan əvvəlki mövqelərə qayıdarsa, biz kompromislərə hazırıq. Sənin kompromisin bizə lazım deyil. Sən bizim torpaqlarımızı boşalt!”

**Deputat Musa Qasımlı mətbuata müraciətlə erməniləri “könüllü” yox, terrorçu, təcavüzkar, işğalçı adlandırmağa çağırdı:** “Diqqətli olaq, bütün dünya bizi izləyir”.

**Vitse-spiker:** “Erməni komandos deyirdi ki, bizdə elə silah var ki, Azərbaycan hələ onu görməyib. Hanı o silah..?”

**Birinci vitse-spiker Ziyafət Əsgərov xatırlatdı ki, atəşkəs rejimi elan olunan 1994-cü ildən bəri Ermənistan ordusu bir gün də olsun atəşkəsə əməl etməyib:** “Səbir göstərdik, dözdük, səbirlə danışıqlara getdik. Ancaq ermənilər yenə də öz havadarlarının əli ilə danışıqlarda imitasiya edib status-kvonu saxlamaq istəyirdilər. Son hadisələr göstərdi ki, ermənilər öz hədlərini aşırlar. Məlum oldu ki, Minsk Qrupunun həmsədrləri elə bunlara dayaqdırlar. Belə bir nəticəyə gəlib çıxdıq ki, artıq beynəlxalq hüquq işləmir. Ona görə də ordumuz məsələyə qarışdı. Donuzu darıdan çıxartmaq üçün güc də tətbiq etmək lazımdır. Düşmən ordusu Azərbaycan ordusunun praktiki gücünü gördü. Vaxtilə hərbi paradda silahlarımızı göstərəndə ermənilər deyirdi ki, Azərbaycan bu silahları paradda göstərmək üçün alıb. Son əməliyyatlar sübut etdi ki, bu, belə deyil. Ermənistan ordusu haqqında mif sabun köpüyü kimi əridi, getdi. Erməni komandos deyirdi ki, bizdə elə silah var ki, Azərbaycan hələ onu görməyib. Hanı o silah..?”

**Z.Əsgərov qeyd etdi ki, Azərbaycan öz gücünü göstərəndən sonra beynəlxalq təşkilatlar hərəkətə keçib:** “İndi görək, bundan sonra beynəlxalq təşkilatlar hansı işləri görəcək”.

Vitse-spiker əlavə etdi ki, bu hərbi əməliyyatlar Azərbaycan xalqının ordu və prezidentlə bir yerdə olduğunu təsdiqlədi. O bildirdi ki, güc strukturları arasında çox yaxşı koordinasiya var idi və bizim əməliyyatlar çox savadlı şəkildə hazırlanmışdı.

**O, bir məsələni də vurğuladı:** “Hərbi əməliyyatlar Azərbaycan ərazisində gedir və erməni ordusu olan ərazidə mülki əhali yoxdur. Mülki əhali biz tərəfdə var, onlar həlak olur, yaralanır. Bunu Azərbaycanda olan diplomatik korpus öz ölkələrinə çatdırmalıdır”.

Bundan sonra ombudsman Elmira Süleymanova illik hesabatını təqdim etdi. Lakin hesabatın təqdimatından sonra da müzakirələr daha çox Qarabağ döyüşləri ilə bağlı oldu.

**Elmira Süleymanova bildirdi ki, yaxın günlərdə özü də təmas xəttində olacaq. Əlavə etdi ki, bu gün beynəlxalq təşkilatların böyük nümayəndə heyəti Ombudsman Aparatında qəbul ediləcək. Ombudsman onu da əlavə edib ki, il ərzində aparata daxil olan təkliflər üzərində işlənilir:** “Fəaliyyətimiz bütövlükdə müharibə dövrünə, erməni təcavüzünə təsadüf edir. Mütəmadi olaraq hərbi hissələrdə oluruq. 100-dən çox rəsmi bəyanatlarımız olub. Hər bir sənəddə erməni dövlətinin işğalçılıq fəaliyyəti öz əksini tapıb”.

**Deputat Siyavuş Novruzov çıxışında sədarətə xitabən xahiş etdi ki, hesabat müzakirəsiz qəbul olunsun:** “Bu gün bizim hamımızın ürəyi Qarabağdadır”.

“İllərdən bəri Azərbaycan ordusu Azərbaycana qələbəni dadızdırdı. İnanıram ki, bu qələbələr davamlı olacaq. Biz bu qələbəni sona çatdırmalıyıq. Beynəlxalq təşkilatlar Azərbaycana müraciət etmək əvəzinə, Ermənistana sanksiyalar tətbiq etməlidir ki, nəhayət, işğalçı qoşunlar torpaqlarımızı tərk etsin”, - deyə, Milli Məclisin iclasında çıxış edən deputat Fəzail Ağamalı bu fikirləri söylədi.

**O, son günlər Qarabağ cəbhəsində qazandığımız uğurlardan da danışdı və ordumuzu təbrik etdi:** “Nə qədər ki, Ermənistanın sonuncu əsgəri ərazilərimizdən çıxmayıb, bizim ordumuz silahını yerə qoymamalıdır. Bu gün Azərbaycan xalqı dövlətlə, ordu ilə bir yerdədir. Azərbaycan xalqı, ordusu və prezidenti bütün dünyaya sübut etdi ki, Azərbaycan güclü dövlətdir, onun güclü ordusu var. Biz xarici dəstəkdən istifadə edib, ermənilərə öz yerini göstərməliyik. Son uğurlu əməliyyatlara görə cənab prezidentə, müdafiə nazirinə, igid əsgərlərimizə öz minnətdarlığımızı bildiririk”.

**Deputat Fuad Muradov da Qarabağdakı uğurlarımıza görə təbriklərini söylədi:** “Bu gün ermənilər post qurur ki, hərbçilər döyüş meydanından qaçmasın. Biz isə post qururuq ki, könüllülərimiz, gənclərimiz döyüş bölgəsinə keçməsinlər”.

**F.Muradov ombudsmandan öz nüfuzundan istifadə edərək, hərbi cinayətlər törədən Sərkisyan və digərləri barədə beynəlxalq təşkilatlara müraciət etməyi xahiş etdi:** “Artıq dünyada hərbi cinayətkarların beynəlxalq məhkəməyə çıxarılması prosesi başlayıb və burada bir nömrəli namizəd Serj Sərkisyandır. Ona görə də Elmira xanım, sizdən xahiş edirəm ki, ombudsman şəbəkəsinə çıxış edəsiniz”.

Deputat Əflatun Amaşov da qələbə xəbərləri ilə bağlı xalqımızı təbrik etdi, ordumuza uğurlar arzuladı. Daha sonra Mətbuat Şurasının sədri cəbhədəki hadisələrin mətbuatda işıqlandırılmasından bəhs etdi: “Azərbaycan ordusu cəbhə xəttində baş verənlərə paralel olaraq, imtahan verdi”. **Ə.Amaşov qeyd etdi ki, jurnalistikanın imtahanı davam edir:** “Azərbaycan jurnalistikası üzərinə düşən öhdəlikləri əvvəlki illərlə müqayisədə yerinə yetirə bilir. Bir sıra nüanslar və xəbər saytları istisnadır. Bir sıra saytlarda xəbərlər dəqiqləşdirilmədən tələsik verilir. Lakin ümumilikdə KİV-lər gərgin vəziyyətdə normal iş fəaliyyəti ortaya qoyurlar, operativ işləyə bilirlər”.

**Ombudsmanın hesabatının qəbulundan sonra deputatlar qanunlara təklif olunan əlavə və dəyişiklikləri də təsdiqlədilər.**

❑ **Elşad PAŞASOY**



# Qurban olum, Azərbaycan əsgəri...

Jalə MÜTƏLLİMOVA

**Üç gündür ilan vurana dönmüşük, çabalayırıq. Adam həyəcandan, sevincdən, narahatlıqdan elə bil dünyanı yeyib-oturmuş kimidir. Bir də adam özünü lap işə yaramazın biri bilir. Düşünürsən ki, isti otaqda oturub yazı yazmağa nə var ki, adamlar torpaq üstündə uzanıb tarix yazır, jurnalist qardaş...**

Bundan sonra da başlayırsan düşünməyə ki, deyəsən, dünyanın ən nataraz işsizisən bu dəqiqə...

Evinin işini də görə bilmir adam. Kimdənsə utanırsan, elə bil. Başlayırsan öz-özünə danışmağa: Görəsən, acdılar? Yeməyə vaxt olurmu? Əyinləri istidirmi? Soyuqdurmu oralar?

Neynədilər, ilahi? Görəsən, nəsə edə biləcəklər? Nəyə ehtiyacları var?

Sonra qürurverici şeylər düşünməyə başlayırsan ki, bəlkə zamanı hiss etməyəsən.

Əsgəri, zabiti tarix yazan məmləkətin adamısan, darıxma!

Səni tanımasa da, yolunda can verən ərlər var.

Buna da hönkürüb, hayqırıb ağlayırsan. Sonra da düşünürsən ki, Allah adamdan nəsə almamış nəsə vermir axı. O şəhid oğullar alınan varımızdır. Başını dik tut, VƏTƏN!

Sən də qürurlu dayan, vətən adamı! İnşallah, ruhları qarşısında üzüqara olmarıq o şəhidlərin...

O uğrunda ölümə gedilən torpaq da candır axı. Bizdən can alıb, can verirlər bizə indi. Ya da biz canımızı verə-verə canımızı alırıq. Can bahasına əldə elədiyimiz canımızdan əziz ola gərək bundan sonra. Yoxsa adam şərəfsiz olar. Hələ ki, şərəfi ilə yaşamağa çalışanlardanıq.

Üç günün olayları göstərdi ki, biz, sadə məmləkət insanları sadəcə Nazim Hikmət demişkən, "küsük" imişik məmləkət məmurlarından. Nəyisə düz eləmirlər, ədalətsiz olurlar deyə biz də sadəcə "küsük". Bu küslük, nifrət həddinə enib bizi yeyib bitirməyib amma. Bu üzdən biz həm də yanlarındayıq lazım gələndə. Lap elə indi olduğu kimi.

Yəni evinə düşən mərmidən yara alan məktəblisini sahiblənən təhsil nazirimə halal olsun deyirəm...

Dizini yerə atıb əsgərimə çəkmə bağlayan generalıma təşəkkür eləyirəm...

Əsgərimin torpağa sadiqliyi önündə baş əyirəm...

Vətəndaşıma minnətdaram, damarındakı qanını yaralı əsgərdən əsirgəmədiyi üçün...

Əsgərin yaralı əlini öpüb, onunla ağlayan generalıma "arxan yerə gəlməsin" söyləyirəm...

Jurnalist həmkarıma həmişə belə ol deyirəm. "Nə vaxt bitəcək" həyəcanını, erməni gədələrinə olan nifrətini göz yaşında göstər dünya liderlərinə...

Məmləkətimin "mənə başsağlığı verməyin" deyən qadınını əlindən öpürəm...

Ali baş komandanıma "rədd olsunlar!" sözünə görə bir ömür təşəkkür borcum var...

Bir də uzaq qohumdan yaxın olanlar var bizə.

Gürcü qonşumuz var, istəmir haqqımıza girilsin, "gəlimmi?" soruşur həyəcanla...

O taylı, güneyli, səslənəndə hər yerdən avazı eşidilən qardaşlarımız var. Üç gündür "yanınızdayıq" deyib hayqırırlar o taydan...

Dost dövlətimiz var, başını PKK deyilən cəlladın edam kötüyünə qoymaq istəyirlər, amma bizə "60 minlik orduyla arxandayam, AZƏRBAYCAN" söyləyir...

Bu arxalanmaya görə "sağ ol"a layiqdirlər.

Bu qədər varın içində bu dəqiqə bircə səbrdən kasadıq. Onu da Allah min il bundan sonra da verməsin bizə daha, istəmirik!..

Bir də... bir də hamı bağışlasın, nə gizlədim, lap söyəsi olsanız da deyim qoy. Azərbaycana qarşı döyüşmək istəməyib öz zalımlarının gülləsinə tuş gələn erməni cocuqlara acıdım yaman. Nə günahları vardı ki?

Müharibədə itkin düşən məktəb yoldaşım vardı, Cabir, yadıma düşür hərdən. Elə bildim, deyir ki, "mənim günahım nəydi bəs?"

Sonra dərisi diri-diri soyulan balaca qızcığaz gəlir göz qabağına. Elə bil, hələ də göynəyir bədəni və deyir: "Mənim günahım nəydi bəs?"

Diri-diri borulara doldurulub, ağzı qaynaqlanıb, çay aşağı axıdılan cocuqlar danışır elə bil, hər biri deyir: "Mənim günahım nəydi bəs?"

Sonra Xocalıdan, Şuşadan, Füzulidən, Laçından, Kəlbəcərdən, Zəngilandan, Əskərandan daha haralardan-haralardan səslər gəlir. Hər biri ayrı-ayrı deyir: "Mənim günahım nəydi bəəəsssss?!..."

Daha susuram, heç nə demirəm "mənim günahım nəydi bəs?" hayqırtısı səsimi batırdı...

Qurban olum, Azərbaycan əsgəri, bu hayqırtını eşitmək istəmirəm daha, məni xilas elə!!!...

# "Dadaş Novxaninski" əfsanəsi də bitdi- "qanuni oğru" kim idi?

**"Qanuni oğru", kriminal aləmdə "Dadaş Bakinski" kimi tanınan Dadaş İbrahimovun ölməsi barədə xəbərlər təsdiqlənib. Müsavat.com-un müxbiri tanınmış avtoritetə yaxın mənbədən öyrənib ki, D.İbrahimov Ukraynada xəstəxanada vəfat edib. Hazırda D.İbrahimovun dayısı da Ukraynadadır və "qanuni oğru"nun Bakıya gətirilməsi ilə bağlı sənədləşmələri həll edir. Avtoritetin cənazəsi Bakıya gətiriləcək və doğulduğu Novxanı kəndində dəfn olunacaq.**

## Mart ayında həbsdən çıxan Dadaş İbrahimov dövrünün ən tanınmış avtoritetlərindən olan Hikmət İbrahimovun oğludur; onun "Rövşən Lənkəranski" ilə problemi nədən yaranmışdı?





"Dadaş Bakinski" martın 13-də həbsxanadan buraxılmışdı. Daha çox "Dadaş Novxaninskiy" ləqəbi ilə tanınan Dadaş İbrahimov "qanuni oğru" adını 2000-ci ildə, 27 yaşında alıb. O ilk məhkumluğunu 2002-ci ildə yaşayıb. Dadaş İbrahimov xuliqanlığı maddəsi ilə 1,5 il azadlıqdan məhrum edib. 2011-ci ilin iyununda D.İbrahimov Peterburqa getmək istəyərkən narkotik maddə ilə saxlanılmışdı. Moskvanın Meşanski Rayon Məhkəməsinin hökmü ilə 4 il müddətinə azadlıqdan məhrum edilmişdi. 2015-ci ildə onun məhkumluğu daha 11 ay artırılmışdı. Buna səbəb kimi isə onun Krasnayarskda cəza çəkdiyi 17 saylı kolonun əməkdaşına rüşvət təklif etməsi olub. Bildirilirdi ki, "qanuni oğru" cəzaçəkmə müəssisəsinə telefon keçirmək üçün türmə əməkdaşına rüşvət olaraq öz saatını təklif edib.

2015-ci ilin yanvarında "Dadaş Bakinski"nin Rusiya Federasiyası ərazisində qalmasının arzuolunmaz sayılması barədə Ədliyyə Nazirliyi tərəfindən qərar verilib. Cəzasını bitirib azadlığa çıxan "qanuni oğru" Rusiya DİN əməkdaşlarının nəzarəti altında Moskvanın "Domodedovo" aeroportundan Azərbaycana deportasiya edilib. Onun Ukraynaya niyə getməsi barədə müxtəlif iddialar var. Amma əsas səbəb "qanuni oğru"nun "sxodka"ya çağırılması barədədir. İddia olunur ki, "Dadaş Bakinski"nin iştirakı ilə "sxodka" keçirilib. Primecrime saytı xəbər verir ki, "qanuni oğru" Bakıdan İstanbula gedib. İstanbuldakı bir kafedə keçirilən "sxodka"da o, "Rövşən Lənkəranski"nin imzası olan "praqonu"(məktub-müraciət) niyə tanımadığını izah edə bilməyib. Məlumata görə, Dadaş İbrahimov "Lənkəranski"nin Sumqayıtda "smotryayuşi" olan adamı haqsız yerə cəzalandırdığı üçün "sxodka"ya çağırılıbmış.

"Sxodka"da "Bakinski" Levan Abuladzeni "Butirka" da ("Levan Suxumski") döyülmə səbəbini əsaslandıra bilməyib. Bu səbəbdən onun titulu əlindən alınıb. Bunu həzm edə bilməyən "Dadaş Bakinski" Kiyevə gedib və "Borispol" hava limanında əvvəl polisə, sonra isə özünə xəsarət yetirib. Bir neçə gün idi ki, D.İbrahimov Birospol xəstəxanasında ölümlə çarpışırdı. Yada salaq ki, D.İbrahimov "Lənkəranski"nin düşməni kimi bilinən 2013-cü ildə öldürülən Aslan Usoyana ("Ded Xasan") loyal mövqeyi ilə tanınırdı. O və "Ded Xasan"a yaxın digər oğrular *(onların bir neçəsi artıq həyatda yoxdur)* bir neçə il əvvəl hazırda 8 saylı cəzaçəkmə müəssisəsində təkadamlıq kamerada saxlanılan Nadir Səlifovun("Lotu Quli") "qanuni oğru" adının geri qaytarılması ilə bağlı Usoyanın "praqon"una imza da atmışdı.

Mənbəmiz onu da deyib ki, "Dadaş Bakinski" "qanuni oğru" Rövşən Canıyevlə ("Lənkəranski") yaranmış problemini qismən yoluna qoyubmuş. Belə ki, "Lənkəranski" onu Bakının ən tanınmış avtoritetlərindən biri olan mərhum atası Hikmət İbrahimova hörmət əlaməti olaraq toxunmayıb. Qeyd edək ki, Hikmət İbrahimov dövrünün ən nüfuzlu avtoritetlərindən olub. O, 1937-ci ildə anadan olub, 2004-cü ildə vəfat edib. "Dadaş Bakinski" yeganə övladına da atasının adını verib.

❑ **"Yeni Müsavat"**

## LifeNews jurnalistləri Azərbaycandan qovuldu




**Rusiyanın LifeNews telekanalının çəkiliş qrupu Azərbaycandan deportasiya olunub.**

Virtualaz.org bildirir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyi mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib.

Onun dediyinə görə, telekanalın jurnalistləri Azərbaycanda heç bir rəsmi akkreditasiya olmadan çalışıblar və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı təxribat xarakterli, yalan məlumatlar yayıblar.

"Onlar Azərbaycana qarşı təxribatla məşğuldular, Dağlıq Qarabağ münaqişəsi barədə yanlış məlumatlar yayırdılar. Bunu nəzərə alaraq həmin jurnalistlərin ölkəmizin ərazisində olması qeyri-qənaətbəxş sayılıb", - H.Hacıyev deyib.

Xatırladaq ki, bu telekanalın rəhbəri erməni Aşot Qabrielyandır.

## Bakı metrosunda təhlükəsizlik tədbirləri gücləndirildi



**"Bakı Metropoliteni"nin stansiyalarında təhlükəsizlik tədbirləri gücləndirilib. Sərnişinlər əvvəlki vaxtlardan fərqli olaraq metroya ciddi yoxlanılaraq buraxılır.**

"Bakı Metropoliteni"nin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayevin lent.az-a verdiyi məlumata görə, təkcə stansiyalarda deyil, platforma və metroya aidiyyəti olan bütün sahələrdə təhlükəsizlik gücləndirilib.

Təhlükəsizliyə təkcə polis əməkdaşları tərəfindən deyil, metropolitenin öz əməkdaşları tərəfindən də nəzarət olunur: "Sərnişinlərdən də diqqətli olmaları xahiş olunur. Ölkədə mövcud olan son durumu nəzərə alaraq hər bir vətəndaş diqqətli olmalıdır".

## Beyləqanda qətl-həmkəndlisini öldürdü



**Beyləqanda qətl törədilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, hadisə aprelin 4-də Beyləqan rayonunun İmamverdilər kəndində qeydə alınıb. Kənd Mədəniyyət Klubuna gələn Həsənalı Quliyev orada işləyən həmkəndlisi Validə Tağıyevaya münaqişə zəminində bıçaqla xəsarət yetirib. V.Tağıyeva hadisə yerində ölüb.**

H.Quliyev könüllü olaraq Beyləqan Rayon Polis Şöbəsinə gələrək təslim olub.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 72 (6393) 6 aprel 2016



**Dağlıq Qarabağ konflikti zonasında aprelin 2-də erməni təxribatlarına cavabla başlayan hərbi əməliyyatlar davam edir. Münaqişə zonasındakı situasiya beynəlxalq aləmdə də diqqət və narahatlıqla izlənilir. Ən azı ona görə ki, dünya daha bir qaynar müharibə ocağı arzulamır.**

# Qərbin əldən buraxdığı qiymətli Qarabağ şansı

## Münaqişənin yenidən hərbi fazaya keçməsindən ən çox Rusiyanın yararlanma riski var, "Putin Qarabağa qoşun yeridə bilər"; **amerikalı ekspert:** "Vaşinqton Azərbaycan və Ermənistan prezidentlərinin görüş imkanını əldən verməməli idi..."



Arile Koen

Lakin yeni müharibədən qaçmağın yolu çox sadədir və onu Azərbaycan dövləti və Türkiyə başda olmaqla, müttəfiqlərimiz açıq şəkildə dönə-dönə bəyan ediblər: bundan ötrü erməni işğalçı qüvvələrinin ərazilərimizi qeyd-şərtsiz tərk eləməsi yetər. Təcavüzkar bunu dinc, danışıqlar yolu ilə etməyənədək alternativ həmişə müharibə olacaq. Azərbaycanın üçüncü yolu yoxdur. Üçüncü yol - işğalla, mövcud status-kvo ilə barışmaqdır ki, ona da ölkəmiz heç vaxt getməyəcək.

Hərbi əməliyyatların bərpası sonuncu qənaətə şübhə yeri saxlamır. Yeni hərbi toqquşma eyni zamanda hamıya, ələlxüsus da vasitəçi dövlətlərə ciddi xəbərdarlıq mesajıdır ki, Dağlıq Qarabağ probleminin həllini sürətləndirmək zamanı çatıb...

***

Konflikt ətrafında situasiya təbii ki, Qərb analitikləri tərəfindən də izlənilir və təhlil edilir. Çıxış yolu təklif edənlər də var. Ancaq təklif olunan çıxış yollarında erməni işğalına son qoyulmasının vacibliyi önə çəkilmirsə, o zaman belə təkliflərin dəyəri də qalmır. ATƏT-in Minsk Qrupunun 22 ildir irəli sürdüyü təkliflərin boşa çıxmasının baş səbəbi budur.

"Hazırda əsas vəzifə Dağlıq Qarabağ konflikti zonasında döyüş əməliyyatlarının dayandırılması və eskalasiyanın qarşısının alınması ən birinci vəzifədir". **Bu barədə amerikalı politoloq, ABŞ-dakı Qlobal Təhlükəsizliyin Analizi İnstitutunun aparıcı eksperti Arile Koen bildirib.**

Onun sözlərinə görə, ABŞ və Rusiya münaqişəyə son qoymaq və işğalın sonuna doğru hərəkət eləmək üçün nəticəvi irəliləyiş təşkil edə bilməyib: "Vaşinqtonda Azərbaycan və Ermənistan prezidentlərinin görüş imkanı əldən buraxıldı. Aydındır ki, Rusiya öz sülhməramlılarını konflikt zonasında, o cümlədən Dağlıq Qarabağda və Azərbaycanın işğal edilmiş 7 rayonundakı qoşunların təmas xəttində yerləşdirməkdə maraqlı olacaq. Belə yanaşma Dnestryanı bölgədə, Abxaziya və Cənubi Osetiyada Rusiyanın xeyrinə işləyib" - hesab edir ekspert. Politoloqun qənaətincə, o halda Moskva həm də münaqişə tərəflərinə silah satmaqla öz təsirini gücləndirmiş olur.

Ən təhlükəlisi də elə odur ki, yeni situasiyadan hamıdan çox Rusiya yararlanıb, sülhməramlıları yerləşdirmək bəhanəsi ilə bölgədə, Azərbaycanda hərbi cəhətdən möhkəmlənsin. Bundan sonra problemin həlli bir qədər də düyünə düşəcək. Çünki Kremlin məsələdə dominant təsiri güclənəcək. Rusiya isə bəlli olduğu kimi, əlində unikal imkan və resurslar ola-ola münaqişənin yoluna qoyulmasında maraqlı deyil.

Bu qənaətə ötən 22 ilin acı təcrübəsi artıq öz möhürünü basıb. Ötən müddətdə Moskva nizamlamaya maraq göstərməyibsə, bundan sonra göstərəcəyi də gözlənilmir - əgər təbii ki, münaqişə ilə bağlı öz hədəflərinə çatmasa.

***

**Bu barədə rusiyalı təhlilçilər də danışmağa başlayıblar. Məsələn, rusiyalı tanınmış politoloq Andrey Piontkovski "Radio svoboda"ya müsahibəsində belə bir variantı istisna eləməyib:** "Ermənistan ideal müdafiə mövqeyi tutub. Məhz bunun üçün o, Dağlıq Qarabağdan başqa Azərbaycanın daha altı rayonunu işğal edib ki, Qarabağın təhlükəsizliyini təmin edən müdafiə xəttini tuta bilsin. Ona görə də Azərbaycan istənilən hazırlığın olmasına, son zamanlarda Rusiyadan aldığı silahlara baxmayaraq, bu xətti pozmaq çox çətindir. Hərbi anlamda pat vəziyyəti yaranıb. Bununla yanaşı, artıq yüzlərlə insan orada həlak olub. Ona görə də hansısa üçüncü tərəfi, bu münaqişənin qızışdırılması maraq dairəsinə daxil olan tərəfi axtarmaq lazımdır. Rusiya KİV bu tərəfin "diz üstündən duran Rusiyaya" problem yaratmaq istəyən Türkiyənin olduğuna eyham vururlar. O, Azərbaycanı Ermənistana qarşı daha bir cəbhə açmağa sövq etdirib. Ermənistan isə məlum olduğu kimi, Rusiyanın müttəfiqidir, deməli, cəbhə həm də Rusiyaya qarşı açılıb".

**"Amma Azərbaycanın Ərdoğanın ambisiyaları ucbatından belə riskli avantüralara gedəcəyinə inanmaq çətindir" deyən analitik hesab edir ki, bu gərginlikdə daha çox Moskva maraqlıdır:** "Ona görə ki, Vladimir Putin dahi sülhməramlı kimi bu regionda sülhün bərqərar olması üçün öz xidmətlərini təklif etsin. Həm də məhz bu sülhməramlılıq qulaqlarını döyən Qərb dövlətlərinin icazəsi ilə açıq şəkildə dövlətlərin təmas xəttinə qoşun yeritməyə imkan verəcək".

**Bu isə politoloqa görə, Moskvanın Gürcüstan üzərində olan çoxdankı nəzarətinin Azərbaycan və Ermənistana da şamil edilməsidir.** "Ani olaraq Rusiyanın Ermənistandakı Gümrü bazasına dəhlizin açılması məsələsi ortaya çıxır, bu dəhliz isə Gürcüstandan keçir. Ukraynada olan təsvir ilhamverici qüvvəsini itirdikdən sonra Suriyaya soxuldular. Suriyada iştahanı azlatmalı oldular, eybi yox, Qafqazda da at oynatmaq olar" - analitik əlavə edib.

***

Problem də elə Rusiyaya münaqişənin həllində yeni təsir imkanları yaratmaq yox, onu əvvəlki təsir imkanlarından necə məhrum eləməklə bağlı olmalıdır. Nədən ki, Rusiyanın Azərbaycanda öz hərbi mövcudluğunu bərpa eləməsi ən yaxşı halda Qarabağ konfliktinin qeyri-müəyyən müddətə dondurulmasına, yəni problemin həllinin tezləşməsinə deyil, daha da uzanmasına gətirəcək.

# "Ermənistan növbəti oyuna girib"

## Qabil Hüseynli: "Elə bir məqam yetişə bilər ki..."

**"Ermənistanın Dağlıq Qarabağdakı separatçılara hərbi dəstək verməsi Rusiya tərəfindən hazırda ortaya atılmış bir oyundur". Bu barədə politoloq Qabil Hüseynli bildirib (axar.az). Sabiq dövlət müşaviri müstəqil dövlət statusuna malik olmayan qondarma DQR-in hansısa müqavilə imzalamaq səlahiyyətində olmadığını deyib:**



"Ermənistan KTMT-nin adından hər hansı bir müqavilə imzalamaq səlahiyyətinə malik deyil. KTMT adından imzalanan müqavilələr buraya daxil olan bütün üzvlər tərəfindən ratifikasiya edilməli və ya onların imzaları ilə təsdiq edilməlidir. Burada ən mühüm faktor da məhz budur. Ermənistan ola bilsin, separatçı rejimlə ikitərəfli müqaviləni KTMT adından yox, öz adı ilə imzalamağa çalışır. Bu müqavilə Rusiyanın tərəfindən hazırda ortaya atılmış bir oyundur. Moskvanın məqsədi bunun vasitəsilə proseslərə gələcək müdaxilələrini guya hüquqi müstəviyə mindirməkdir. Əgər Rusiyanın özü qondarma qurumu tanımırsa, dövlət kimi mövcud olmayan bir qurumla müqavilə imzalamayıbsa, Ermənistanın imzaladığı müqavilə də qeyri-hüquqidirsə, maraqlıdır, Moskva bununla proseslərə necə müdaxilə edə bilər? Azərbaycan ordusunun hazırda öz ərazisində apardığı əməliyyatlar hücum deyil, özünümüdafiə tədbirləridir. Elə an gələ bilər ki, Azərbaycan hücum tədbirlərinə də əl ata bilər. Bu, tam qanunidir".

Xatırladaq ki, 1992-ci ildə yaradılan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) Ermənistan, Belarus, Rusiya, Qazaxıstan, Qırğızıstan və Tacikistan daxildir. 1993-cü ildə Azərbaycan da qoşulub. Bununla belə, Azərbaycan 1999-cu ildə müqavilənin vaxtını uzatmaqdan imtina edərək təşkilatı tərk edib. Ermənistan bu illər ərzində dəfələrlə Rusiyanı Azərbaycana qarşı Dağlıq Qarabağ münaqişəsinin həllinə dəstək verməyə səsləyib. Bir müddət öncə isə Sərkisyan Dağlıq Qarabağdakı separatçı rejimə hərbi dəstək veriləcəyini və bununla bağlı müqavilələr imzalanacağını açıqlayıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

## "Malımız da, canımız da bu Vətənə fəda olsun" - Hacı İbrahim Nehrəmli

### Tanınmış iş adamının Silahlı Qüvvələrə Yardım Fonduna başlatdığı dəstək kampaniyasına xeyli imkanlı şəxsin qoşulduğu deyilir



**Azərbaycanın tanınmış iş adamı, "Avesta" Konserninin prezidenti Hacı İbrahim Nehrəmlinin Silahlı Qüvvələrə Yardım Fonduna əlli min manat məbləğində vəsait köçürdüyü haqda məlumat verilmişdi. Aprelin 4-də Nehrəmlinin bu addımı barədə ölkə mediasında, o cümlədən musavat.com-da xəbər yayılmışdı. Qarabağ cəbhəsində gedən savaş fonunda bu xəbər bir qədər nəzərdən qaça bilərdi. Çünki hər kəsin gözü, qulağı cəbhəyə dikilib. Müharibənin ölkəmiz üçün böyük qələbə ilə başa çatacağı barədə məlumat istəyirdi xalq.**

Fəqət Hacı İbrahimin bu davranışı da elə müharibəyə aid olduğundan ictimai diqqətdən kənar qalmadı. Bu xəbərin oxunma sayı hamının cəbhə xəbərlərinə həssas olduğu indiki situasiyada kifayət qədər idi.

Əslində qabardacaq, şişirdəcək bir şey baş verməyib: bir iş adamı öz ölkəsinin ordusuna 50 min manat məbləğində dəstək verib. Hacı İbrahim Nehrəmli özü bu barədə deyib ki, bu çətin günlərdə Azərbaycan xalqının hər bir nümayəndəsi Ali Baş Komandanın ətrafında sıx birləşməlidir: "Hesab edirəm ki, hansı sahədə çalışmasından asılı olmayaraq, hər bir azərbaycanlı torpaqlarımızın işğaldan azad edilməsi üçün əlindən gələni etməlidir. Bu bizim hər birimizin vətəndaşlıq borcudur".

**İş adamı zərurət yarandığı təqdirdə bundan sonra da Azərbaycan ordusuna yardım edəcəyini diqqətə çatdırıb:** "Bu təşəbbüsə bütün iş adamlarımız qoşula bilər. Hər kəs bacardığını, əlindən gələni etməlidir. İş adamlarımızı bu təşəbbüsə qoşulmağa çağırıram. İnşallah, tezliklə işğal olunan torpaqlarımız cənab İlham Əliyevin uzaqgörən və qətiyyətli siyasəti nəticəsində işğaldan tamamilə azad olunacaq. O torpaqlarda biz iş adamları xalqımızın, dövlətimizin və cənab prezidentin dəstəyi ilə dünyanı heyran qoyan layihələr həyata keçirəcəyik".

**Hacı İbrahim deyib ki, Qarabağ azad edilməsə və bu problem ədalətli həllini tapmasa, Azərbaycan xalqı böyük mənada xoşbəxt ola bilməz:** "Hamımız Qarabağlı olmalı, hər kəs torpaqların azad edilməsi işinə öz töhfəsini verməlidir. Ayrı-ayrı bölgələrdən olan vətəndaşlarımız, Qarabağdan və ətraf rayonlardan didərgin düşmüş bacı-qardaşlarımız əl-ələ verib qarı düşmənə qarşı birləşməliyik. Azərbaycanı zəif salmaq, başını qatmaq üçün bu problemi yaradıblar. Biz çalışıb Qarabağ məsələsini bu gün həll etməliyik ki, gələcək nəsillər bu üzücü problemlə yaşamasın. Bunun üçün malımız da, canımız Vətənə, onun ordusuna fəda olsun".

Əldə etdiyimiz məlumata görə, Hacı İbrahim Nehrəmlinin Silahlı Qüvvələrə Yardım Fonduna etdiyi dəstəyə xeyli iş adamı qoşulub.

## "Onların kredit borcları silinsin..."

### Deputat banklara çağırış edib



**Deputat Qənirə Paşayeva parlamentin aprelin 5-də keçirilən iclasında banklara şəhidlər və şəhid ailələri ilə bağlı müraciət edib. Qənirə Paşayeva parlamentdə ombudsmanın illik hesabatının müzakirəsi zamanı bankları son günlər cəbhədə aparılan əməliyyatlar zamanı şəhid olan qardaşlarımızdan kimlərinsə banklara kredit borcları varsa, onları silməyə, bağlamağa çağırıb: "Banklara üz tutaraq deyirəm ki, əgər son günlər döyüşlərdə şəhid olmuş insanlarımızın özlərinin və ya ailələrinin kredit borcları varsa, onları bağlayardılar. Vətənimiz, torpaqlarımız uğrunda şəhid olanlar və onların ailələri ilə bağlı bu cür addımlar həm şəhid ailələrimiz, həm də bütün cəmiyyətimiz üçün müsbət bir addım olardı.Ümid edirəm ki, bu çağırışa səs verəcəklər".**

❑ Musavat.com



# Dollarla kredit verilməsi rəsmən dayandırıldı

### Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) Direktorlar Şurasının keçirilən iclasında qərar qəbul edilib; səbəb...

**Azərbaycanda xarici valyuta ilə kreditlərin verilməsi bir ay müddətinə dayandırılıb. ANS PRESS-in məlumatına görə, bu barədə aprelin 4-də Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) Direktorlar Şurasının keçirilən iclasında qərar qəbul edilib. Bildirilib ki, xarici valyutada istehlak kreditlərinin verilməsi sahəsində dərin və hərtərəfli təhlillərin aparılması, istehlakçıların hüquqlarının müdafiəsinin və maliyyə sabitliyinin təmin olunması üçün 1 ay ərzində tənzimləyici çərçivələrin müəyyən edilməsinə dair qərar qəbul edilib.**

Bununla əlaqədar qərara alınıb ki, banklar tərəfindən əhaliyə xarici valyutada istehlak kreditlərinin verilməsi aprelin 5-dən etibarən 1 ay müddətinə dayandırılsın və bu haqda müvafiq göstərişlər kredit təşkilatlarına göndərilsin. Palata bu müddətin uzadılması hüququnu öz üzərində saxlayır.

MBNP-nin qəbul etdiyi bu qərar, heç şübhəsiz, bütün banklara və bank olmayan kredit təşkilatlarına aiddir. Yəni onlar bir ay ərzində vətəndaşlara xarici valyuta ilə kredit verə bilməyəcəklər. Bu qərarın verilməsi, heç şübhəsiz ki, kommersiya banklarının ötən günə qədər əhaliyə yalnız dollarla kredit təklif etməsinin qarşısını almaq məqsədi daşıyır.

**Bankların əhaliyə yalnız dollarla kredit təklif etməsinə bir neçə gün əvvəl Azərbaycan Respublikasının Ali Məhkəməsinin sədri Ramiz Rzayev də münasibət bildirmişdi. Sədr deyib ki, bankların əhaliyə yalnız dollarla kredit təklif etməsi insan hüquqlarına ziddir:** "Manat və dollar kreditləri məsələsini banklar özləri həll edir. Fikrimcə, vətəndaş krediti dollarda götürübsə, dollarla, manatla götürübsə, manatla qaytarır. Qayda belədir. Banklar tərəfindən müştəriyə yalnız dollarla kreditin təklif edilməsi vətəndaşın hüququnun pozulmasıdır. Lakin məhkəmə bankların daxili işinə müdaxilə edə bilmir".

Ümumiyyətlə, bankların əhaliyə yalnız xarici valyuta ilə kredit təklif etməsinin qanuni olub-olmadığı əsas müzakirə mövzusu olan məsələlərdən biridir.

**Hüquqşünas Əkrəm Həsənov deyir ki, əvvəllər banklar əhaliyə kreditləri yalnız 10% valyuta fərqi ilə təklif edə bilərdi:** ""Banklar haqqında qanun"da "açıq valyuta mövqeyi" adlı müddəa vardı. Lakin təəssüflər olsun ki, bu qanun Mərkəzi Bank tərəfindən 2015-ci ilin birinci rübündə ləğv edildi. Ötən günə qədər banklar istədiyi valyuta ilə 100%-ə qədər kredit verə bilirdi. Qanunun ləğv edilməsi ölkənin əsas bankının kommersiya bankları üzərindəki nəzarətini itirməsinə gətirib çıxarıb".

**Əkrəm Həsənov deyir ki, bu qanun boşluğundan istifadə edən kommersiya bankları Mərkəzi Bankdan manatla kredit götürərək dərhal ABŞ valyutasına çevirirdilər və əhaliyə də elə həmin valyuta ilə kredit təklif edirdilər:** "Həm də qanunvericiliyə əsasən, mərkəzi bank kommersiya təşkilatlarına krediti yalnız milli valyuta ilə verə bilər. Bunu görən banklar da Mərkəzi Bankdan manatla kredit alırdı. Daha sonra hərraclarda həmin manatlarla yenidən dollar alır və aldığı həmin xarici valyutanı əhaliyə baha təklif edirdi".

Prezident İlham Əliyev fevral ayının 3-də Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin yaradılması haqqında fərman imzalayıb.

Ölkədə bankların əhaliyə xarici valyuta ilə kredit verilməsini dayandırmasının əsas səbəbləri ehtimal ki, kommersiya banklarının özbaşınalığının qarşısını almaq və iqtisadiyyatın inkişafına dəstək göstərmək mahiyyəti daşıyır. Çünki iqtisadiyyatın əsas qanunlarından biri də odur ki, milli valyutayla kreditləşmə həyata keçirilmədiyi halda hər hansı ölkənin iqtisadiyyatında geriləmə müşahidə edilməsi labüd olur. MBNP-nin bazarda maliyyə balansını yenidən tənzimləmək üçün belə bir addım atması labüd idi. Eyni zamanda Mərkəzi Bank kommersiya banklarına dollar kreditlərindən daha çox manatla verməlidir. Belə olan halda manat qıtlığı ortadan qalxmış, iqtisadiyyat inkişaf etmiş olar.

❑ RÖYA

# QHT Şurası birinci maliyyə müsabiqəsinin nəticələrini təsdiqlədi

**Aprelin 5-də Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının növbəti iclası keçirilib. İlk olaraq ön cəbhədə şəhid olan hərbi qulluqçuların ruhları bir dəqiqəlik sükutla yad edilib.**

Şura sədri, millət vəkili Azay Quliyev gündəliyə rəhbərlik etdiyi qurumun 2016-cı ilin birinci rübündəki fəaliyyəti haqqında hesabat, şura üzvlüyünə keçirilən seçkilərin nəticələri, cari ilin birinci maliyyə müsabiqəsinin nəticələri, ikinci maliyyə müsabiqəsinin mövzu istiqamətləri, şuraya təqdim edilən müsabiqədənkənar layihələrin qiymətləndirilməsi və digər məsələlərin daxil edilməsini təklif edib. Gündəlik yekdilliklə bu ardıcıllıqla təsdiq olunub.

Şura Katibliyinin icraçı direktoru Fərasət Qurbanov 2016-cı ilin I rübündə Şuranın Əsasnaməsinə uyğun olaraq QHT-lərə Dövlət Dəstəyinin bütün istiqamətləri üzrə fəaliyyətini uğurla davam etdirdiyini bildirib.

F.Qurbanov mart ayında şura üzvlüyünə açıq və şəffaf şəkildə seçkilərin keçirildiyini və səsvermənin nəticəsinə əsasən 8 qrupun hər biri üzrə ən çox səs toplayan 3 nəfərin sənədlərinin yaxın günlərdə dövlət başçısına təqdim olunacağını bildirib.

Katibliyin icraçı direktoru şuranın 2016-cı il birinci maliyyə müsabiqəsinə QHT-lərin 660 layihə göndərdiyini, bunlardan 110-nunun təqdim etdiyi layihə sənədləri tələblərə cavab vermədiyindən texniki seleksiya mərhələsini keçmədiyini qeyd edib. 550 QHT-nin layihəsi isə ekspertizaya təqdim olunub. Hər bir layihə 3 müxtəlif ekspert tərəfindən qiymətləndirilib. Şura 40 balı keçid balı kimi müəyyənləşdirib. F.Qurbanov ekspertizada yüksək bal toplayan və maliyyələşdirilməsindən imtina olunması tövsiyə olunan bütün layihələrin detallı şəkildə ictimai müzakirəsini keçirməyə hazır olduqlarını vurğulayıb.



F. Qurbanov gündəlikdə dayanan 2016-cı ilin ikinci maliyyə müsabiqəsinin mövzu istiqamətləri, şərt və qaydaları ilə də bağlı ətraflı məlumat verib.

Şura üzvləri Tahir Süleymanov, Dilarə Vəliyeva, Əliməmməd Nuriyev, Sahib Məmmədov, İlqar Məmmədov, Rəna Mirzəzadə və Vüqar Qədirov çıxış edərək gündəlikdə dayanan məsələlər haqqında rəy və təkliflərini bildiriblər.

Şura müsabiqənin nəticələri ilə bağlı müzakirələri yekunlaşdıraraq 40-dan çox bal toplamış 277 layihənin maliyyələşdirilməsini qərara alıb. 273 layihə isə 40-dan az bal topladıqlarına görə müsabiqədən kənarda qalıb. Hər iki siyahı şuranın internet resurslarında yerləşdiriləcək.

Gündəlikdəki digər məsələlər də müzakirələrdən sonra ayrılıqda səsə qoyularaq qəbul edilib.

İclasda Vüqar Qədirov uğurlu fəaliyyətinə görə şuranın fəxri fərmanı ilə təltif edilib.

YENİ MÜSAVAT
N 72 (6393) 6 aprel 2016



# Miqrantlarla bağlı müqavilə qüvvəyə mindi; qaçqın seli Türkiyədə...

## Yerli əhali yanlış məlumatlandırılıb, etirazlar var, amma...

**Avropa İttifaqı ilə Türkiyə arasında qaçqın böhranına dair əldə olunan müqavilə aprel ayının 4-dən etibarən qüvvəyə minib. Müqaviləyə əsasən, Türkiyədən qeyri-leqal yollarla yunan adalarına keçən qaçqınlar geri göndəriləcək. İlk mərhələdə təxminən 500 qaçqın Yunanıstanın Lesbos adasından İzmirin Dikili rayonuna göndəriləcək. Türkiyəyə göndəriləcək miqrantlar Əfqanıstan, Pakistan və Suriya vətəndaşıdırlar.**

Miqrantların tibbi yoxlamadan keçəndən sonra qeydiyyata alınacağı və başqa şəhərlərə göndəriləcəyi nəzərdə tutulub. Bunun əvəzində Avropa İttifaqı isə Türkiyəyə qayıdan hər bir suriyalının yerinə Türkiyədən bir suriyalı qaçqın alacaq.

Bu çərçivədə suriyalı bir qrup miqrant planlaşdırılmış reyslə Almaniyanın Hannover şəhərinə göndərilib. Müxtəlif şəhərlərdən İstanbuldakı Atatürk hava limanına gətirilən suriyalılar pasport işlərindən sonra polis müşayiəti ilə təyyarəyə mindirilib.

Ölkələrindəki müharibə, təzyiq və ağır şərtlərə görə ölümü gözə alaraq yollara düşən Şərq ölkələri qaçqınları ilə bağlı çıxış yolu tapılıb. Artıq Avropa Birliyi ölkələri ilə Türkiyə arasındakı anlaşma tətbiq olunmağa başlanıb. Yüzlərlə qaçqın zorla Yunanıstan üzərindən Türkiyəyə göndərilib.

Geri göndərmənin ilk günündə Midillidəki Moria və Karatepe düşərgələrindəki 3 min qaçqın Dikliyə göndərilib. Qaçqınların zorla gətirilməsi zamanı etiraz edəcəklərindən qorxan dövlət yetkililəri ciddi polis kartonu da hazırlayıb. Hər səfərdə qaçqınlar üçün onların sayı qədər də polis vardı. İlk geri göndərilənlər arasında Türkiyə-Avropa Birliyi arasında anlaşmanın imzalandığı 20 martdan sonra gələnlər, miqrant müraciəti qəbul edilməyənlər və ilk qeydiyyat məkanı Türkiyə kimi qeyd olunanlar olub.

Qaçqınların gəmilərdən endirilməsi zamanı medianın görüntü çəkməsini əngəlləmək üçün polis onları mühasirəyə alıb. Miqrantlar Dikili limanında qurulan və 3 çadırdan ibarət geriyə qəbul stansiyasında qeydiyyata alınıb, ardınca isə avtobuslarla Kırklarelidə yerləşən Pehlivanköy Geri Göndərmə Mərkəzinə göndərilib. Buradakı proseduralardan sonra miqrantlar ya ölkələrinə göndəriləcək, ya da onların Türkiyədə qalmalarına icazə veriləcək. Əgər sonuncuların Türkiyədə qalmalarına razılıq olsa, ya düşərgələrə yollanacaqlar, ya da ünvan göstərmələri şərtilə düşərgə xaricində qalmalarına icazə veriləcək. Qaçqınların geri göndərilmə prosedurunda mütəxəssislər iştirak etməyib. Anlaşmanı hüquq prinsiplərinə zidd hesab edən Birləşmiş Millətlər Təşkilatı əvəzinə Yunanıstanda polislər, Türkiyədə isə Köç İdarəsi işçiləri müəyyən prosedurları yerinə yetirib. Bu isə onu göstərir ki, BM nümayəndələri hadisə yerində olmadığı üçün qaçqınlarla bağlı həyata keçiriləcək bəzi prosedurlar zamanı hüquq pozuntularına yol verilə bilər.

Dikili əhalisi isə yanlış məlumatlandırıldığı üçün qaçqınlara qarşı aqressiv əhvalda köklənib. Dikilinin xaricindəki boş sahədə yerləşdiriləcək Geri Göndərmə Mərkəzi qəsdən həm mediaya, həm də yerli əhaliyə qaçqın düşərgəsi kimi təqdim edilib. Yerli idarəedici orqanlar problemi siyasət predmetinə çevirməyə çalışırlar. Aralarında yerli idarəedici orqanların və siyasi partiyaların da olduğu Dikili Platformasının "Dikili turizmi zəifləyəcək", "İqtisadiyyatımız bərbad hala düşəcək"... kimi açıqlamaları ucbatından xalq qaçqınları öz ətraflarında, yaşayış yerlərində görmək istəmir.

Geri göndərmə prosedurları zamanı bir çox qaçqın haqları müdafiəçiləri üzərində ingilis dilində "Geri göndərmələri dayandırın, sərhədləri açın" sözləri yazılmış plakatlar qaldırıblar.

Polis isə bu plakatları dərhal yığışdırıb və aksiya keçirənləri də hadisə yerindən uzaqlaşdırıb.

"Xalların Körpüsü" təşkilatının üzvləri isə üzərində türk və ingilis dillərində "Türkiyə-AB arasındakı razılıq rəsmi insan qaçaqçılığıdır. Anlaşma ləğv edilsin», eləcə də "Qaçqınlar, xoş gəldiniz. Bu ölkə də sizin evinizdir" sözləri yazılmış plakatlar qaldırıblar.

Bu, Avropanın II Dünya Müharibəsindən sonra üzləşdiyi ən böyük miqrant böhranıdır. Təkcə 2015-ci ildə 1 milyondan çox insan Avropa ərazisinə daxil olub. Onların çoxu Suriyada bir neçə ildir ki, davam edən vətəndaş müharibəsi nəticəsində evlərini tərk etməyə məcbur olub.

Türkiyədə 2,7 milyon nəfərə qədər Suriya qaçqını qeydə alınıb.

Türkiyə ilə AB arasında imzalanmış bu razılaşmanın nə dərəcədə uğurlu nəticə verəcəyini zaman göstərəcək.

Makedoniya və miqrantların Qərbi Avropaya doğru hərəkət marşrutu üzərində olan digər ölkələrin miqrantlarının öz ərazilərinə girişinin qarşısını almağa başlamasından sonra qaçqınlar daha çox Yunanıstana toplaşmağa başlamışdılar.

Yeni qaydalar evlərini tərk etmiş minlərlə insanın daha da qərbə, İtaliya və digər ölkələrə doğru hərəkət etməsi ilə nəticələnə bilər.

Çexiyanın daxili işlər naziri Milan Xovanets ölkə polisini 25 xristian qaçqını İraqa qaytarmaq üçün bütün mümkün üsullardan istifadə etməyə çağırıb. Həmin qaçqınlar onlara verilmiş sığınacaqdan imtina edib və pasportlarının qaytarılmasını xahiş ediblər.

Onlara verilən sənədlərə görə, aprelin 7-dək qaçqınlar Çex Respublikasının ərazisini tərk etməlidirlər. Daxili işlər naziri hesab edir ki, bu müddət ərzində iraqlıların vətənə qaytarılması təmin olunmalıdır. Milan Xovanets twitter səhifəsində yazıb: "Bu müddətdən qanunun pozulması və ya onları Şengen ərazisinin başqa ölkəsinə köçürülməsi üçün istifadə etmək olmaz. İraq xristianları Çexiya və onun vətəndaşlarının xeyirxahlığından sui-istifadə ediblər".

Bu arada Fransanın liman şəhəri olan Calaisdəki qaçqın düşərgəsinin sökülməsindən sonra 130-a yaxın uşağın itkin düşdüyü müəyyən edilib. İngiltərə yardım təşkilatı "Help Refugees UK" uşaqların itkin düşməsi ilə bağlı Fransa hökumətini günahlandırıb. Yardım təşkilatı tərəfindən məsələ ilə əlaqədar verilən açıqlamada **"Düşərgə boşaldılan və sökülən zaman kimsəsiz qaçqın uşaqlara sığınacaq verilmədi. Fransa hökuməti tərəfindən nəyə ehtiyac duyduqları soruşulmadı və onları təhlükəsiz şəkildə qorumaq üçün sistem təşkil edilmədi. Uşaqları Calais və ya Dunkirkdən başqa bir yerə yerləşdirmək üzrə qeydiyyat aparılmadı"** -deyə bildirilib.

Yardım təşkilatı tərəfindən Fransa hökumətinə qalan 294 kimsəsiz qaçqın uşağın daha yaxşı qorunması istiqamətindəki müraciətə isə "Qəbul edilmədi" cavabı verilib. Təşkilatdan verilən açıqlamada "İnterpol Avropada ümumilikdə 10 min qaçqın uşağın itkin düşdüyünü bildirir. Bu rəqəmin artmaması üçün Calais və Dunkirkdə uşaqlar üçün lazım olan hər şeyi etməliyik" ifadəsi yer alıb.

❑ **Sevinc TELMANQIZI**



## Turistlər Ermənistana aldıqları biletləri geri qaytarır

**Qarabağda vəziyyətin gərginləşməsi Ermənistana səfər etmək istəyən turistlərin sayında 25 faiz azalmaya səbəb olub. Virtualaz.org xarici KİV-ə istinadən bildirir ki, azalma aprelin 2-dən müşahidə olunur.**

Bildirilir ki, yay mövsümündə Rusiyada satılan turist yollanışlarının 4 faizi həmişə Ermənistana olub.

Məlumatda o da bildirilir ki, əvvəldən alınmış biletlərin artıq qaytarılması halları da var.

## "Artıq sıra bizdədir..." - İsa Yaşar Tezel



**İsa Yaşar Tezel**
**MHP millət vəkili namizədi, Azərbaycan Mədəniyyət mərkəzinin baş katibi**

**MHP-nin İğdır millət vəkilliyinə namizədi, tanınmış tele-jurnalist, siyasətçi İsa Yaşar Tezel Azərbaycana dəstəyini göstərib. Musavat.com tele-jurnalistin son günlərdə cəbhədə baş verənlərlə bağlı yazısını təqdim edir.**

***

Bəli, artıq sıra Türkiyədədir. Bizim ən çətin vaxtlarımızda, bombaların partladığı, təhlükəsizlik güclərimizin şəhid edildiyi, sivil xalqın küçəyə çıxa bilmədiyi bir zamanda Azərbaycan Prezidenti cənab Əliyev ölkəmizə gələrək, dövlətimizə və xalqımıza mənəvi dəstək verdi.

"Azərbaycan Türkiyənin yanındadır", mesajını dünyaya nümayiş etdirdi.

İndi isə qardaş ölkə Azərbaycan öz torpaqlarını geri almaq üçün döyüşür.

Türkiyə prezidenti və ya baş naziri də Azərbaycana gedərək, qardaşlarımıza "Biz də sizinləyik və sizdən biriyik", deyərək ermənilərə və Rusiyaya mesaj verməlidir.

Həmçinin hər cür texniki və lojistik dəstək verilməlidir.

Dostluğun və qardaşlığın əsası da budur.

Can Azərbaycandan gözəl xəbərlər alırıq.

Çox vacib rayonumuz olan Füzulinin kəndlərinin geri alındığı, ordumuzun irəliləməsi xəbərləri bizi sevindirir.

Kədərimiz də var. Əlbəttə ki, şəhidlərimizə görə.

Vətən üçün şəhid olmaq şərəfdir.

Ocağımıza alov düşüb. Analarımız bayatı deyir, göz yaşı tökür. Təsəllimiz şəhidlərimiz sayəsində Vətən torpaqlarının geri alınmasıdır.

Dövlətçiliyin vəzifəsi olaraq dövlət məmurları yas mərasiminə qatılmalı və şəhid ailələrinə dəstək verməlidir. Şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Başın sağ olsun, Vətən...

Mən şəxsən Can Azərbaycanım üçün nə lazımdırsa etməyə hazıram.

"Gəl" deyin, gəlim, "öl" deyin, ölüm. Mənim kimi on minlərlə insanın olduğunu da bilirəm. Təki Vətən torpaqları geri alınsın. Təki Azərbaycan istəsin. Biz buna hazırıq.

***"Bozqurdlar ulayacaq bütün Anadoludan***
***Biz də sizdən biriyik, biz də sizdən biriyik..."***

# Turizmə üç böyük təhlükə: terror, savaş və dollar...

## Bir ailənin istirahəti üçün olan turpaketin qiyməti təxminən 400 manat bahalaşıb, amma turistləri çəkindirən daha ciddi səbəblər var

**Turizm mövsümünün başlamasında bir neçə ay qalsa da, artıq insanlar yay istirahəti haqda düşünməyə başlayıb. Lakin təəssüf ki, bu il dünyanın ən əlverişli turizm məkanlarından terror və müharibə xəbərlərinin gəlməsi insanları çətin seçim qarşısında qoyub. Azərbaycan insanının ən sevimli istirahət məkanı olan Türkiyənin mərkəzi şəhərlərində baş verən ardıcıl partlayışlar və onlarla insanın həyatını itirməsi bu ölkəni turistlərin nəzərində təhlükəli məkana çevirib. Həmçinin dolların bahalaşması ilə əlaqədar olaraq turpaketlərin də bahalaşması ölkədən xaricə gedənlərin sayının da azalacağından xəbər verir.**

Turizm şirkətləri də dolların və terrorun onların işinə mənfi təsir etdiyini etiraf edirlər. Problemlərdən biri də Avropaya və Türkiyəyə mühacir axınıdır. Təbii ki, insanlar mühacirlərin sıx olduğu yerləri də təhlükəsizlik və rahatlıq baxımından yaxşı dəyərləndirmirlər.

Azərbaycana gəlincə, son günlər ölkəmizin Dağlıq Qarabağ uğrunda savaşa başlamasını da nəzərə alsaq, bu fakt da xarici turistlərin buraya gəlişini əngəlləyən bir amildir.

Turizm sektorundakı son durumu və yenilikləri "Yeni Müsavat"a danışan **"FLY Travel" şirkətinin rəhbəri Mamed Əliyev** də bildirdi ki, Türkiyədə baş verən terror hadisələri ora getmək istəyən turistlərin sayını azaldıb: "Bizə müraciət edən vətəndaşların əksəriyyəti Türkiyəyə getməkdən qorxur və başqa hansı ölkədə dincələ biləcəklərini soruşurlar. Yeni Ankarada və İstanbulda baş verən terror aktları insanları bu şəhərlərə getməkdən çəkindirir. Antalya, Bodrum, Quş adası isə sakitlikdir.



Orada heç bir təhlükə yoxdur. Hamısı beşulduzlu hotellərdir. İstanbulun mərkəzinə isə gediş yoxdur. Əvvəllər daha çox İstanbula tələbat var idi. Ancaq indi orada turistlərin kütləvi olduğu yerlər təhlükəlidir.

Müqayisə aparsaq, ötən ilin hazırkı dövrü ilə müqayisədə Türkiyəyə gedənlərin sayında yarıbayarı azalma var. Bir tərəfdən dolların qalxması, digər tərəfdən terror turizmə də ciddi təsir edib".

**Şirkət rəhbəri turpaketlərin qiymətlərinin də dolların məzənnəsinə uyğun olaraq dəyişdiyini və bu məsələnin öncədən turistlərlə razılaşdırıldığını dedi:** "Dolların bahalaşması ilə qiymətlər də bahalaşıb. Köhnə qiymətlə bir ailənin istirahəti üçün olan tur təxminən 400 manat bahalaşıb. Dollar qalxanda qiymətlər də qalxır, dollar düşəndə qiymətlər də düşür. Biz müştərilərlə əvvəldən şərt kəsirik ki, dollar qalxarsa, qiymətlər yeni kursa görə hesablanacaq. Müqavilədə də yazılıb ki, dollar qalxarsa, qiymət Milli Bankın həmin günkü məzənnəsinə görə müəyyən ediləcək. Bu səbəbdən bəziləri imtina edir, bəziləri isə razılaşır.

Elə adam var deyir ki, dollar alıb evimdə saxlamışam və nə olursa-olsun qiyməti ödəyib gedəcəyəm. Eləsi isə etiraz edir.

**M. Əliyev onu da bildirdi ki, dolların qiymətinin oynaması onları ziyana salır:** "Biz bilmirdik ki, dollar bu qədər qalxacaq. Dollarla ödənişlərimiz var idi, Türkiyəyə, Dubaya. Hamısı üstümüzdə qaldı. Onlar üçün fərqi yoxdur, deyirlər ki, dollar 1 manat da olsa, 10 manat da olsa, borcumuzu dollarla qaytarmalısınız".

Cəbhədə gedən savaşın daxili turizmə təsirinə gəlincə, Mamed Əliyev bildirdi ki, daxili turlar əsasən Quba, Qəbələ, Qusar istiqamətindədir və o istiqamətdə hər hansı problem yaşanmadığı üçün proses əvvəlki kimi davam edir.

**İqtisadçı Vüqar Bayramov da qeyd olunan amillərin turizmə ciddi təsir etdiyini vurğuladı:** "Bütün ölkələrdə dolların bahalaşması ilə əlaqədar xarici turizm bahalaşır, daxili turizm daha sərfəli olur. Bu səbəbdən ölkədən xaricə getmək istəyənlərin sayında azalmalar müşahidə olunur. Çünki xarici turizm xarici valyuta ilə hesablanır. Ancaq sözsüz ki, Azərbaycanın turizm şirkətləri bundan istifadə edib yerli turizm inkişaf etdirməyə çalışmalıdır. Son dövrlər Azərbaycana gələn və gəlmək istəyən turistlərin sayında artımlar müşahidə olunur. Ölkəyə gəlmək istəyən turistlərin sayı xeyli artdı. Bu onu göstərir ki, Azərbaycan qiymət və keyfiyyət məsələlərindəki problemləri aradan qaldırsa, daha çox turist cəlb edə bilər. Bunun üçün real imkanlar var. Lakin turizm sektorunda köklü islahatların aparılmasına ehtiyac var. Ehtimal olunur ki, bu il ölkədən xaricə gedən turistlərin sayında azalmalar olacaq".

**İqtisadçı etiraf etdi ki, Türkiyədə baş verən terror olayları da o ölkəyə gedən azərbaycanlıların, eləcə də avropalıların sayının azalmasına gətirib çıxaracaq:** "Ümumiyyətlə, güman olunur ki, terror hadisələrindən sonra Türkiyəyə turpaketləri ucuzlaşacaq və bu ölkəyə gələn turistlərin sayında ciddi azalma olacaq. Türkiyə dünya ölkələri arasında ən çox turist sayına malik olan ölkə idi. Türkiyəyə hər il 4 milyondan artıq turist gəlirdi ki, bu ölkənin iqtisadiyyatı üçün 4 milyard dollara yaxın gəlir demək idi. Son terror hadisələrindən sonra avropalılar Türkiyəyə gəlməkdən qorxacaqlar. Proqnozlara görə, 2016-cı ildə Türkiyənin turizm sektoru 2015-ci illə müqayisədə 15 faiz kiçiləcək. Terror, Türkiyə ilə Rusiyanın münasibətlərinin kəskinləşməsi bu ölkəyə gələn turistlərin sayını kəskin azaldacaq.

Turizm şirkətləri də xarici turları artıq dollarla təklif edirlər. Manatın məzənnəsi ucuzlaşandan sonra paketlər dollarla təklif olunmağa başladı. Razılaşmalar manatla olsa da, dolların məzənnəsinə uyğun olaraq tənzimlənir".

Oxucularımızın diqqətinə çatdıraq ki, bütün turizm şirkətləri xarici turların qiymətlərini dollar və avro ilə təklif edir. Bəziləri hətta irəli gedərək, daxili turları da dollarla təklif edir.

Məsələn, swtravel.az saytında qiymətlərə nəzər salsaq, Londona 7 gecə-8 günlük qrup halında turun qiyməti 1151 avrodur. Eyni müddətə olan Vyana səfəri isə 1050 avrodur. 4 gecə 5 günlük Paris səfəri 410 avroya başa gəlir. Paketə aviabiletin daxil olub-olmamasına görə qiymətlərdə fərqlər var. Yeni internetdə daha ucuz turpaketlər diqqətinizi çəkə bilər. Lakin bu halda uçuş xərcini əlavə ödəməli olacaqsınız.

Məsələn, Fransada Paris şəhərində bir həftəlik istirahətin 440 avroya təklif edilməsi cəlbedicidir, lakin paketə aviabilet daxil deyil.

Daxili turlardan isə Bakı-Naftalan- Gəncə- Şəki- Qəbələ-İsmayıllı- Bakı xətti üzrə səfər 340 dollardır. Naxçıvan gəzintisi və Əshabi- Kəhf ziyarəti 190 manata, 4 günlük Şamaxı turu 290 manata, 5 günlük Lənkəran turu isə 271 manatadır.

**Nərgiz LİFTİYEVA**

**Elan**

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**
**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**
**Əlaqə nömrəsi (050) 264 49 99**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

YENİ MÜSAVAT
N 72 (6393) 6 aprel 2016

**"Eurovision 2011"in qalibi Eldar Qasımovun sosial şəbəkədə yayımladığı "Sülh şəraitində yaşamaq istəyirik" fikri ictimaiyyətdə birmənalı qarşılanmayıb. Gənc müğənnin sülh çağırışı ilə ünlülərin də tənqidinə tuş gəlib. Axşam.az-ın məlumatına görə, aparıcı Xoşqədəm Hidayətqızı bununla bağlı müğənniyə ismarış göndərib:**

# İncəsənət əhli sülh, yoxsa müharibə istəyir?



**Rasim Balayev:** "Bunun bir yolu var - güc yolu"



**Cabbar Musayev:** "Şəhidlərimizin sayının artması çox ürəkağrıdıcıdır"



**Bəhram Bağırzadə:** "Bədnam qonşularımız başa düşmürsə, onları başa salmaq lazımdır"



**Nüşabə Ələsgərli:** "Nə qədər gözləyək?!"

"Günah bu uşaqda deyil, ona Qarabağ həqiqətlərini anlatmayan valideynlərindədir. Günah onun fikirlərini önəmli sayaraq, tirajlayan bizlərdədir. Mən təklif edirəm ki, zamanında min bir yolla əsgərlikdən yayınaraq, indi vətəndən danışanların açıqlamalarını yaymayın. Bu, şəhidlərimizin ruhuna, cəbhədə qəhrəmancasına döyüşən əsgərlərimizə hörmətsizlikdir. Ən azı haqq davamız bitənə qədər bunları gündəmə gətirməyək. Bu uşağı tanıyan biri varsa, ona zəng edib desin ki, səni dünya vətəndaşı edən Azərbaycandır. Əxlaqsız Kim Kardaşyana bax, necə kampaniya aparır. Sən də sosial şəbəkələrdə kampaniyalara qoşul. Dünyaya car çək ki, atəşkəsi şərəfsiz ermənilər pozub. Mülki əhalinin yaşadığı məntəqələri atəşə tutublar. Bundan sonra da layiqli cavablarını alıblar.

İnanın, əsəbdən nə yazıram, bilmirəm. Görəsən, bu tip insanlar bilir torpaq itkisi nə deməkdir? Ürəyim partlayır, bu vəziyyətdə olmasam, indi cəbhə bölgəsində idim. Məgər biz bu günləri gözləmirdik? Biz torpağımız üçün ölümə də gedərik. "Əmr verin, cənab prezident" demirdikmi? Azərbaycanın qəhrəman ordusu, Allah sizi qorusun. Biz ölmədən bizə qələbə sevinci yaşadın. Allah yardımçınız olsun".

Bəs incəsənət adamları işğal olunan torpaqlarımızın sülh, yoxsa müharibə yolu ilə geri qaytarılmasını arzulayır?

Məsələ ilə əlaqədar bir neçə tanınmış incəsənət nümayəndələrinin mövqeyini öyrəndik.

**Xalq artisti Rasim Balayev bu barədə "Yeni Müsavat"a danışaraq məsələnin həllinin yalnız güc yolu ilə mümkün olduğunu deyib:** "Yox, sülh yolu ilə mümkün deyil. Erməniləri tanıyanlar yaxşı bilirlər, onlar başqasının bostanına soxulan donuz kimidirlər. Onları elə bostana girmiş oğru kimi vurmaq lazımdır. Bundan öncə sülh yolu ilə torpaqlarımızı geri qaytara bilsəydik, bu olardı. Bunun bir yolu var - güc yolu. Bu gün ordumuz güc yolu ilə torpaqlarımızı geri almağa çalışır və arzu edirəm ki, bu, axıradək davam etsin. Başqa yol yoxdur".

**Bəstəkar-müğənni Cabbar Musayev isə bu cür mövqe bildirib:** "Bu barədə ən gözəl sözü prezidentimiz deyib. Ondan gözəl hələ heç yerdə eşitmədim. İstər qonşu, istərsə də Avropa dövlətləri, onlar Qarabağın Azərbaycana məxsus olduğunu bilirlər. Qarabağ Azərbaycanındır. Lakin şəhidlərimizin sayının artması çox ürəkağrıcıdır. Bu gün (dünən-red.) də ATV kanalının yaxınlığında bir şəhid dəfn olunurdu, özümü saxlaya bilmədim... Bunları gördükcə həm qürur hissi duyuram, həm də çox pis oluram ki, yenə də başladıq şəhidlər verməyə. Buna çox üzülürəm. Bir sevindirci xəbər var məndə ki, cəbhədə, sərhədlərdə iki post qurulub. Birinci post ondan ötrü qurulub ki, azərbaycanlılar könüllü olaraq döyüşlərə getmək istəyir, erməniləri torpaqlarımızdan çıxartmaq istəyirlər. Bir post da Ermənistan tərəfindən qurulub ki, erməni qaçqınları Ermənistana getməsin. Bu həddindən artıq sevindiricidir.

Aydın məsələdir ki, itkisiz bu torpaqlar heç vaxt alınmayacaq. Allah şəhidlərimizə rəhmət etsin, əsgərlərimizə də güc-qüvvət versin ki, tez bir zamanda torpaqlarımız geri alınsın".

**Əməkdar artist, müğənni Nüşabə Ələsgərli sülhə gərək olmadığını deyib:** "Sülhün sülh, davanın da dava yeri var. Nə qədər gözləyək?! Gözlədik, onlar isə bizə atəş açdılar. Torpaqlarımızı işğal etdikləri bəs deyil, atəşkəsi də pozurlar. Özləri istədilər bu savaşı. Dünya dövlətlərinin əksəriyyəti ermənilərin tərəfindədir. Amma indi elə bir məqamdır ki, biz bu məqamdan yaxşı istifadə edək. Sülh lazım deyil. Yaxşı başlamışıq, gərək davam edək. İnşallah, yaxşı olar... "

**Əməkdar artist Bəhram Bağırzadə:** "Artıq 25 ildir ki, Azərbaycan xalqı dözümlü xalq kimi dözüb. Və çalışmışıq ki, sülh yolu ilə məsələ həll olunsun. Bunu bədnam qonşularımız başa düşmürsə, onları başa salmaq lazımdır. Prezidentimiz də bildirdi ki, onlar sülh yolu ilə məsələni həll etmək istəmirsə, biz müharibə yolu ilə bu məsələni həll edəcəyik. Və şükürlər olsun ki, 4-5 gündür ki, döyüşlərdə biz qalib gəlirik və yaxşı məlumatlar gəlir. Şəxsən öz adımdan deyə bilərəm ki, Azərbaycan Respublikasının vətəndaşı, Azərbaycanın oğlu və Allahın bəndəsi kimi mən də həmin çağırışı gözləyirəm. Ermənilər başa düşməlidirlər ki, 25 ildir ki, gəlib soxulublar bizim torpaqlara, əraziyə. Vaxtilə onları başımıza çıxartmışıq, ona görə də başımıza bu cür oyun açırlar. Bəli, bu gün mübarizəni davam etdirməliyik, qalib gəlməliyik və bizim millət xoşbəxt, rəvan günlər görməlidir. Mən ancaq bunu görmək istəyirəm. Qoy itkilərimiz az olsun. Allah şəhidlərimizə rəhmət etsin, o dünyalarını versin. Şəhidlərimizin valideynlərinə də Allahdan səbr diləyək ki, təmkinli olsunlar".

❑ Xalidə GƏRAY

## Əsgərlərə dəstək tədbirləri keçirilib

**Aprelin 2-dən başlayaraq cəbhə bölgəsində yaranmış gərgin vəziyyətlə əlaqədar bir sıra mədəniyyət ocaqlarında tədbirlər keçirilib. Musavat.com xəbər verir ki, keçirilən tədbirlər əsasən Azərbaycan əsgərinə dəstək nümayişi etdirmək məqsədilə baş tutub.**



Azər Paşa Nemət

Bu cür tədbirlərdən biri də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında baş tutub. Teatrın mətbuat xidmətindən verilən məlumata görə, tədbirdə Ermənistanın Azərbaycana qarşı növbəti silahlı təxribatı nəticəsində həlak olan hərbçi və mülki şəxslərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən teatrın bədii rəhbəri və direktoru, xalq artisti Azər Paşa Nemət Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən, son dövrlər erməni silahlı qüvvələri tərəfindən cəbhədə baş verən hadisələrdən və əsgərlərimizin qəhrəmanlıqlarından söz açıb.

Tədbirdə xalq artistləri Nurəddin Mehdixanlı, Rafiq Əzimov, Bəsti Cəfərova, Hacı İsmayılov, Məleykə Əsədova, əməkdar artist Məsmə Aslanqızı, aktyor Anar Heybətov çıxış edərək hər an Azərbaycan əsgərinin yanında olduqlarını söyləyiblər. Çıxış edənlər şəhidliyin ən uca zirvə olduğunu, şəhidlərin əziz xatirəsinin hər zaman qəlbimizdə yaşayacağını bildirib.

Daha bir tədbir Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrında baş tutub. Teatrın mətbuat xidmətindən müsavat.com-a verilən məlumata görə, aprelin 5-də keçirilən bu tədbirdə xalqımızın haqlı mübarizəsinə, Azərbaycan əsgərinə dəstək nümayiş etdirmək üçün keçirilib. Dövlət Kukla, "Yuğ" və Pantomima teatrlarının kollektivlərinin iştirak etdiyi tədbirdə həlak olan hərbçi və mülki şəxslərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Kukla Teatrının direktoru, UNİMA Azərbaycan Milli Mərkəzinin prezidenti Rəşad Əhmədzadə xalqımızın sülhsevərliyindən, hər zaman əmin-amanlığın tərəfdarı olmasından söz açıb.

Azərbaycan Turizm və Menecment Universitetində isə tələbə və müəllim heyətinin iştirakı ilə "Torpaqlarımızı işğaldan azad edək" şüarı altında mitinq - yürüş keçirilib.

Xatırladaq ki, cəbhədə gedən döyüşlər zamanı həlak olan şəhidlərimizin qəhrəmanlıq və şücaətlərinə ehtiram olaraq Nizami Kino Mərkəzində aprelin 3-də gün ərzində repertuarda olan bütün komediya və əyləncə janrında olan filmlərin nümayişi dayandırılmışdı.

❑ Xalidə GƏRAY



## Cəbhədəki vəziyyət "Formula-1" yarışının hazırlıqlarına təsir etməyib

**Ekspert:** "Çünki bu hadisələrdən sonra Azərbaycanın yarışmanı keçirməməsi, geri çəkilməsi imicimizə xətər gətirə bilər"

**Bakıda keçiriləcək "Formula-1" yarışlarına hazırlıqlar davam edir. Yarışlara hazırlıq çərçivəsində paytaxtda bir sıra təmir-quruculuq işlərinin görülməsi ilə yanaşı, bu oyunların təbliğatı ilə bağlı ciddi addımlar da atılmaqdadır.**

Rəsmi açıqlamalara görə, artıq xarici auditoriya üçün nəzərdə tutulan biletlərin də 65 faizi satılıb.

Lakin son günlər Ermənistan tərəfinin təxribatları nəticəsində cəbhədə gərginlik xeyli yüksəldi. Eyni zamanda ölkədə terror və bu kimi təhlükələrin qarşısının alınması üçün təhlükəsizlik tədbirləri də gücləndirildi.

Belə bir situasiyada ölkədə hər hansı bir yarışmanın keçirilməsi məqbuldurmu?

**Təhlükəsizlik üzrə ekspert İlham İsmayıl** "Yeni Müsavat"a bildirib ki, əgər əvvəllər bu yarışmanın keçirilməsinin əleyhinə idisə, hazırda lehinədir:

"Çünki bu hadisələrdən sonra Azərbaycanın yarışmanı keçirməməsi, geri çəkilməsi imicimizə xətər gətirə bilər. Təhlükəsizlik tədbirlərinə gəlincə isə hər hansı bir yarışmanın keçirilib-keçirilməməsindən asılı olmayaraq, ermənilərin xüsusi təşkilatları var. Onlar fəallaşa bilərlər. Eyni zamanda ölkəmizdə başqa dövlətin də terror hadisəsi ola bilər. Buna qarşı xüsusi xidmət orqanlarının məlum tədbirləri var. Bu tədbirlərin hamısını digər orqanlarla, ələlxüsus da bizə dost olan ölkələrin xüsusi xidmət orqanları ilə informasiya mübadiləsi nəticəsində həll edə bilərlər. Azərbaycanın daxilində terror etməyə meyli olan yoxdur. Ona görə də maksimum çalışmaq lazımdır ki, xaricdən gələn hər kəsə xüsusi nəzarət olunsun".

**Ekspert bildirib ki, Azərbaycanda Dövlət Təhlükəsizlik Xidməti (DTX) yeni yaransa da təcrübə yeni deyil:** "DTX-nin yeni qurulması aydın məsələdir. Burada kadr çatışmazlığı var. Ancaq köhnə təcrübəmiz də mövcuddur. Forma və metodlar yerində qalır. Bu baxımdan çox güman ki, belə məsələləri həll etməyin yollarını bilirlər. Hesab edirəm ki, həm kəşfiyyat idarəsi, həm də əks-kəşfiyyatımız bu kimi məsələlərin öhdəsindən gəlməyi bacarırlar. Bu isə o demək deyil ki, biz işləri görəcəyik və terror olmayacaq. Terrordan heç bir ölkə, o cümlədən biz də sığortalanmamışıq. Sadəcə olaraq, terrorun özü nə qədər dəhşətlidirsə, onu proqnozlaşdırmaq da bir o qədər çətindir".

**Baş verənlərin yarışma ərəfəsində ölkəmizə gələcək olan turistlərin sayına təsiri barəsində isə "Yeni Müsavat"a iqtisadçı ekspert Rəşad Həsənov danışıb. O bildirib ki, müharibə gedən ölkələrdə turist həcminin azalması dünyada gedən tendensiyadır:** "Bu, təbii bir prosesdir. Əgər hazırkı situasiya gərginliyə doğru inkişaf edərsə, növbəti dövrlərdə Azərbaycana səfər edəcək turistlərin sayının həcmində azalma olacaqdır. Cəbhədə proseslər əgər ötən günlərdəki kimi davam edərdisə, növbəti günlərdə biz xarici dövlətlərin öz vətəndaşlarına çağırışlarını görəcəkdik. Lakin hazırda atəşkəsin elan olunması düşünürəm ki, artıq situasiyanı dəyişdirdi. Bu məsələlər də artıq bundan sonra cəbhədə proseslərin inkişafından asılı olacaq. Əgər müharibə bir neçə gün əvvəlki tempdə inkişaf edərsə, bu, ölkəyə turist axınının qısamüddətli dövrdə azalmasını və eyni zamanda növbəti dövrlərdə Azərbaycanda ictimai-siyasi sabitliyin nəzarətdən çıxmasına da səbəb ola bilər. Bu baxımdan "Formula-1" yarışlarının keçirilməsi ilə bağlı da müəyyən problemlər ortaya çıxa bilərdi".

❑ Əli RAİS

# YENİ MÜSAVAT

Son səhifə

N 72 (6393) 6 aprel 2016


# "Yerə 10 min dollar səpələyin" - qəribə vəsiyyət

Amerikalı Leonard Maullun ilginc vəsiyyəti dünyanı şoka salıb. O, dostu Bill Berridən ölümündən sonra sevdiyi və hər gün baş çəkdiyi dəniz sahilinin üzərindən təyyarə ilə yerə 10 min dollar səpələməsini xahiş etmişdi. 5 dəqiqə ərzində 10 min dolları yerə səpələmək mümkün olub. Xərçəng xəstəliyindən dünyasını dəyişən Leonard Maull dostuna "mən öldükdən bir il sonra 10 min dollarımı 5, 10, 20 və 50 dollarlıq əsginazlar olaraq dəniz sahilindən camaatın üzərinə at" deyibmiş. Dostunun vəsiyyətini yerinə yetirmək istəyən Berri bu barədə öncə polisə müraciət edib. Hüquq-mühafizə orqanları bu aksiyada hər hansı təhlükə görməsələr də, bəzi önləyici tədbirlər də həyata keçiriblər. Bu səbəbdən də pulların camaat tərəfindən yığışdırılması zamanı hər hansı insident baş verməyib. Ancaq iki nəfər pulu əldə etmək üçün bir-birini itələdikləri üçün kiçik zədələnmələrə məruz qalaraq xəstəxanaya aparılıblar.






## Evlənmək üçün qız tapa bilmədilər, aksiya keçirdilər

Türkiyənin Mersin şəhərindəki Ərdəmli bölgəsində gənclər etiraz aksiyası keçiriblər. Buna səbəb onların evlənmək üçün qız tapa bilməmələri olub. Onlar deyib ki, bu gedişat terrordan daha təhlükəlidir. Əllərində "Usta, sözümüz söz, ən azı 5 uşaq", "Nə olursan ol, yenə də gəl" sözləri yazılmış plakatlar tutan gənclər səslərini yetkili şəxslərə eşitdirməyə çalışıblar. Kəndin ağsaqqalı isə deyib ki, hazırda Ərdəmlidə 25-45 yaşları arasında 25 subay gənc var: "Problemimiz böyükdür. Gənclərimizin subay olması kənd əhalisinin sayını azaldır. Əhalinin sayı 400-dən 200-ə düşüb. Köç başlandı, gənc qızlar da burdan getdi. Gənclər isə "biz vətənimizi, kəndimizi tərk etməyəcəyik" deyirlər".

Kəndin ən yaşlısı Zeynəb Öztürk isə deyib ki, gənclərin evləri də hazırdır, amma evlənəcək qız tapılmır: "Gəncləri evləndirmək üçün baş nazirimizdən yardım istəyirik. Uşaq səsi istəyirik".

Kəndə son olaraq 9 il öncə gəlin gəlib.

# Yarpaq dolmasına görə boşandılar

Türkiyənin İstanbul şəhərində 42 yaşlı T.V adlı kişi həyat yoldaşından yarpaq dolması bişirmədiyi üçün boşanıb. Türkiyə mətbuatının xəbərinə görə, hər ikisi uğur qazanmış iş adamı olan cütlüyün həyatı kənardan problemsiz görünürdü. Onlar tez-tez evlərinə qonaq çağırır, iş yerlərində qazandıqları uğurları dostları ilə birgə qeyd edirdi. Amma bu qonaqlıqlardan birindən sonra T.V həyat yoldaşından "bir gün də yarpaq dolması bişir" deyə xahiş edib. Həyat yoldaşı, 34 yaşlı Y.V isə bu təklifi özünə qarşı hörmətsizlik kimi qəbul edib və dostlarına "mən yüksək təhsilli, karyeralı bir iş qadınıyam. Dolma bükmək evdar qadınların işidir" deyib. Beləcə, cütlük arasında iplər gərilib və 3 ay sonra məhkəmədə qarşılıqlı anlaşma ilə boşanıblar. T.V isə məhkəmədəki çıxışında deyib: "Biz kiçik kənd evlərində, sobanın yanında yataraq böyüyən nəsilik. Anamızın bişirdiyi yarpaq dolmasının qoxusu bizi ta küçənin başından yaxalayar və evə yığardı. Evin kandarına yaxınlaşanda o evin istiliyi səni yeməyin qoxusu ilə yaxalamalıdır. Restorandan sifariş edilən yemək ailə olmağa bəs etmir".





## Ona oxşamaq üçün 28 min dollar sərf etdi

Böyük Britaniyanın Liverpul şəhər sakini 28 min dollarlıq plastik əməliyyat keçirib. 31 yaşlı Karolin Anderson Pamela Andersona bənzəmək üçün xeyli əzm və pul sərf edib. Lenta.ru saytı "Daily Mail"ə istinadən xəbər verir ki, son 16 il ərzində qadın doqquz dəfə döş, dodaqların böyüdülməsi və dişlərin ağardılması əməliyyatını keçirib. Britaniyalı daim solarouma da gedir ki, dərisinin rəngi P.Andersona bənzəsin. Amma saysız-hesabsız əməliyyatlar qızın səhhətinə də təsirsiz ötüşməyib. Onun döşlərindən birini baş vermiş iltihaba görə götürüblər. Çətinliklərə baxmayaraq, Anderson daha bir neçə plastik əməliyyat keçirmək istəyir.

2016-cı ilin martında buna bənzər hadisə baş vermişdi. 5 uşaq anası Barbi gəlinciyinə bənzəmək üçün 500 min dollar xərcləmiş, silsilə əməliyyatlar keçirmişdi.




**QOÇ** - Həddindən ziyadə uğurlu gündür. Ürəyinizə yaxın adamlarla rastlaşmağınız, həmçinin sevindirici təkliflər almağınız uzun müddət yadınızda qalacaq. Uzaq yola çıxsanız, ehtiyatlı olun.

**BUĞA** - Sağlıq durumunuzda və fəaliyyət istiqamətində problemləriniz gözlənilsə də, qalan işləriniz uğurlu olmalıdır. Hətta günün ikinci yarısında qazanmaq ehtimalınız da var.

**ƏKİZLƏR** - Ümumi məziyyətlərinə görə qənaətbəxş təqvimdir. Xüsusən də saat 14-16 aralığında hansısa xoş bir hadisəylə rastlaşacaqsınız. Ailə üzvlərinizlə, həmkarlarınızla mehriban davranın.

**XƏRÇƏNG** - Ulduzların düzümü rahatlığı daha çox səfər və qonaqlıqlarda tapa biləcəyinizdən xəbər verir. Çünki bu gün sizə çoxlu adamlarla təmasda olmaq vacibdir. Tənhalığa qurşanmayın.

**ŞİR** - Bəxtinizdə ilahi bir təqvim durub. Bu səbəbdən də hansısa müqəddəs yeri ziyarət etməklə, kimsəsizləri sevindirməklə böyük savab qazanmış olarsınız. Axşam maraqlı insanlarla görüşünüz mümkündür.

**QIZ** - Səhhətlə bağlı nasazlığınız olsa da, bu, ovqatınızı pozmayacaq. Əksinə, gün ərzində iştirakçısı olduğunuz proseslər sizi xeyli fərəhləndirəcək. Ətrafınıza yaxşı insanlar toplaşacaq.

**TƏRƏZİ** - Maliyyə vəziyyətiniz imkan versə, özünüzə təzə geyim alın. Çünki xeyli müddət belə fürsət ələ düşməyəcək. Göy qübbəsi kənar təsirlərə aludə olmamağı, riskdən qorxmamağı tövsiyə edir.

**ƏQRƏB** - Ulduzlar bu təqvimi daha çox istirahətə ayırmağı tövsiyə edir. Ağır fiziki və zehni işlərə girişməyin. Saat 16-dan sonra qonaq getməyə, ikili gəzintilərə aludə olmağa dəyər.

**OXATAN** - Bir tərəfdən cəhdlərinizin boşa çıxması, digər tərəfdənsə ətrafınızda olanların naxələfliyi ovqatınızı poza bilər. Odur ki, müəyyən qədər təcrid olunub öz aləminizə qapılın.

**OĞLAQ** - Yalnız maliyyə məsələlərində uğurlarınız gözlənilir. Odur ki, əsas gücünüzü bu istiqamətə yönəldin. Kiməsə borc vermək və ya almaq fikrindən uzaq olun. Axşam başqa ünvana getməyin.

**SUTÖKƏN** - Saat 15-ə qədər qarşılıqlı münasibətlərdə gərginlik gözlənildiyindən tədbirli olun. Bunu bacarsanız, ulduzlar sonrakı müddətdə sizə xüsusi zövq verəcək. Təzə xəbər də eşidəcəksiniz.

**BALIQLAR** - Çox düşərli gündür. Boş durmaqdansa ən xırda şansdan belə istifadə edin. Tərəfdaşlıq zəminində, perspektivli sövdələşmələrdə uğurlarınız artacaq. Sağlıq durumunuzu diqqətdə saxlayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Xalı çox olan qadın 7 yaş cavan görünür



İngiltərədə insan bədənindəki xallarla bağlı yeni araşdırma aparılıb. İtaliyanın "La Repubblica" qəzetində yer alan məlumata görə, London Kral Universitetindən bir qrup insanın Sindi Krouford, Yeva Mendez və Merlin Monro kimi əfsanəvi ulduzların gözəlliklərinin simvolu sayılan xallar barədə araşdırmasına 1200 əkiz qadın qatılıb. Eksperimentə qatılan qadınlar 18-79 yaş arasında olub.

Nəticədə yüzdən artıq xalı olan insanların əzələləri daha möhkəm, ürəkləri və gözlərinin daha sağlam olduğu üzə çıxıb. Elm adamları bu insanların öz yaşıdlarından ən azı 7 yaş daha gənc göründüyünü aydınlaşdırıb. Bundan əlavə, xalları çox olan insanların sümükləri də normadan daha möhkəm olur.

Qeyd edək ki, adətən insanlarda 30-40 xal ola bilir. Ancaq bəzi insanlarda onların sayı 600-ə çata bilər.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750